**BÖYÜK RƏHBƏR AYƏTULLAH XAMENEI**

# NƏHCÜL-BƏLAĞƏ HAQQINDA

**Tərtib edən: Məhəmmədmehdi Əliqulu**
**Çevirən: M. Əzizoğlu**

Kitabın adı:................Nəhc əl-bəlağə haqqında
Tərtib edən:............. Məhəmmədmehdi Əliqulu
Tərcümə edən:................................ M. Əzizoğlu
Nəşr edən:..................................."Üfüqe-fərda"
Çap tarixi:..................................................2012
Çap növbəsi:..........................................Birinci
Tiraj:..........................................................3000

# Giriş

Ali dini rəhbər həzrət Ayətullah Xameneinin "Nəhc əl-bəlağə"yə diqqəti onun bu dəyərli kitabla dərin tanışlığını göstərir.

Qarşınızdakı kitabda onun çıxışlarından, bəyanatlarından, moizə və tövsiyələrindən götürülmüş fikirləri dərin tədqiqatından xəbər verir. Kitab tədqiqatçıların, tələbələrin və digər bu kitabla maraqlananların yolunu işıqlandıra bilər.

“Nəhc əl-bəlağə” ilə tanışlıq, “Nəhc əl-bəlağə”nin tarixçəsi, “Nəhc əl-bəlağə”nin İslam cəmiyyətində rolu, İslam dünyası və “Nəhc əl-bəlağə”, Təhsil Nazirliyinin “Nəhc əl-bəlağə”nin tanıtdırılmasında rolu və s. bu topluda sizə təqdim olunan mövzulardır.

Çalışmışıq ki, mövzüləri ardıcıllığı, ahəngdarlığı pozulmayacaq şəkildə seçək. Amma ola bilər ki, bu kitabda bir tədqiqat əsərinin nizamı olmasın. Bu səbəbdən ehtiyac duyulduqda çıxışların tam mətninə müraciət etmənizi təklif edirik.

Habelə, təkrara yol verməməyə çalışsaq da bəzi hallarda təkid üçün təkrar etməli olmuşuq.

Ümid edirik ki, pedaqoqlar, təbliğatçılar, İslam maarifi fəalları dünya müsəlmanlarının rəhbəri həzrət Ayətullah Xameneinin tövsiyələrindən ilham alaraq "Nəhc əl-bəlağə"nin İslam cəmiyyətində günü-gündən daha da dirçəlişi yönündə son dərəcə səy göstərəcəklər.

**13 rəcəb, 1416, İmam Əlinin (ə) mübarək doğum günü**
**15. 9. 1374**

# Birinci fəsil

## *"Nəhc əl-bəlağə" ilə tanışlıq*

Öncə bacı və qardaşlarımıza "Nəhc əl-bəlağə" haqqında qısa məlumat verməliyəm. Bildiyiniz kimi "Nəhc əl-bəlağə" İmam Əlinin (ə) bizə yadigar qoyub getdiyi xütbə, məktub və aforizmlərin (qısa və hikmətli fikirlər, kəlamların) məcmusudur. Şərafətli "Nəhc əl-bəlağə" kitabı üç hissədən ibarətdir: xütbələr; məktublar; qısa kəlamlar.[1]

* * *

Xütbələrdə məqsəd cümə namazının xütbələri yox, bütövlükdə çıxışlar, nitqlərdir. Onların bəzisi cümə namazında söylənilən xütbələr də ola bilər. Lakin İmam Əli (ə) xalqla söhbətlərində bir müəllim, bir hakim (dövlət başçısı), bir islamşünas mövqeyindən çıxış edirdi. Bu xütbələr həmin çıxışların məcmusudur. Şübhəsiz, bu çıxışlar İslam təfəkkürünün ümumi xətlərini əks etdirməklə yanaşı günün məsələlərini, İmam Əlinin (ə) həyatının cari problemlərini də ehtiva edir.[2]

* * *

"Nəhc əl-bəlağə" dünya hay-küyündən kənar, bu və ya digər cəmiyyətdə mövcud gerçəklərdən, problemlərdən uzaq bir filosofun sözləri, İslam maarifi haqqındakı fikirləri deyil. Bu, böyük bir cəmiyyəti idarə etmək məsuliyyətini üzərində hiss edən, din bilicisi, bütün İslam və Quran maarifini dərindən bilən, xalqla düşüncəli dolu bir ürəklə, böyük ruhla, məsuliyyətli bir vəzifə ilə üz-üzə gəlib, onlarla söhbət edən,

---

[1] "Nəhc əl-bəlağə" 241 xütbə, 79 məktub, 480 qısa kəlamdan ibarətdir. "Nəhc əl-bəlağədən dərslər", səh. 3

[2] "Nəhc əl-bəlağədən dərslər", səh. 1

suallarına cavab verən bir şəxsiyyətin kəlamlarıdır. "Nəhc əl-bəlağə" belə bir vəziyyətdə meydana gəlmişdir.[1]

*   *   *

"Nəhc əl-bəlağə" üzərinə elə bir işıq salınmalıdır ki, siz şiələr, Əli (ə) ardıcılları onun nə olduğunu biləsiniz. Öz ürəyinizi yalnız Quranla, "Nəhc əl-bəlağə" ilə işıqlandırasınız. Bəzilərinin bizim qəflətimizdən, cəhalətimizdən istifadə edərək öz zehinlərinin məhsulunu Quran və "Nəhc əl-bəlağə" adı ilə beynimizə doldurmalarına icazə verməməliyik. Qərb mədəniyyətinin təsiri altına düşmüş ünsürlər bu bəşəri, ictimai, tarixi və incəsənət əsərləri əvəzinə başqalarının zehninin məhsuluna, başqalarının yazılarına, söylədiklərinə üz tutmamalıdırlar.

Əgər biz "Nəhc əl-bəlağə" ilə tanış olsaq, bu kitaba doğru gedən yolumuzu açsaq, kiçik daxili düşmənlərin, daim bizim İslamdan uzaq qalmağımızdan, qəflətimizdən yararlanan böyük cinayətkar düşmənlərimizin sui-istifadələrinin qarşısını almış olacağıq.[2]

*   *   *

Pak imamlar (ə) öz qəbul etdikləri hakimiyyətlər dönəmində yaşamamışlar. Onlar anarxiya dönəmində yaşamışlar. Problemləri bir hakim olaraq, dövlətin idarəçilik məsuliyyətini dilə gətirməmişlər. İmam Əli (ə) isə bir İslam hakimi kimi danışır.

Öz hakimiyyəti altında olan cəmiyyətlə danışır. Bu, İmam Əlinin (ə) "Nəhc əl-bəlağə"də yer alan kəlamlarının böyük hissəsini təşkil edir. Təbii ki, o həzrətin (ə) kəlamları arasında hakimiyyəti dönəminə aid olmayan sözlər də olmamış deyil.

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı, (1363)

[2]"Ələvi hökumət haqqında bir neçə söz", səh. 4 (Böyük Rəhbərin Tehranın Dar əs-salam məscidindəki çıxışı, 1359. 5. 5)

Biz bu gün həmin şəraitdə yer almışıq. Bizim İslami cəmiyyətimizin hazırkı şəraiti həmin şəraitdir.[1]

* * *

"Nəhc əl-bəlağə" Məhəmməd (s) vəhyinə ilk iman gətirənin, Peyğəmbərin (s) xəlifəsinin kəlamıdır. Bu, bütün müsəlmanların yekdilliklə qəbul etdiyi xəlifədir. Bu, şiələrə və bir çox əhli-sünnəyə görə səhabələrin ən üstünü olan imamdır. Yəni bu qədər əzəmətli, əhəmiyyətli insanın çıxışları, xütbələri olduğu kimi qalmışdır. Bu İslam maarifinin böyük və gerçək mətni ola bilər. Biz İslama inancın tam və əhatəli əsaslarını - əxlaqa, zöhdə, irfana, rəhbərliyə, siyasi-ictimai sistemə özündə yer verən bu kitabda - tapa bilərik.[2]

* * *

"Nəhc əl-bəlağə" görkəmli alim Seyid Rəzinin[3] təlaşı ilə toplanmış məcmuədir. Şükürlər olsun ki, bu günədək tək adi xalqın yox, elm adamlarının, mütəfəkkirlərin müraciət mənbəyi, idrak ölçüsü olmuşdur. Demək olar ki, bu kitab toplandığı gündən bu günədək hazırkı qədər ehtiyac duyulmamış, zaman və məkan şəraitinə uyğun olmamışdır.

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı, (1363)
[2] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[3] "Nəhc əl-bəlağə"ni toplayan Əllamə Seyid Rəzi hicri dördüncü əsrin böyük alimi olmuşdur. O, h. q. 359-cu ildə Bağdadda dünyaya göz açmışdır. Onun valideyinləri hər ikisi İmam Əlinin (ə) mübarək nəslindəndirlər. "Nəhc əl-bəlağə"ni toplayan Əllamə Seyid Rəzi iyirmi il çalışmış və nəhayət yüzlərlə kitabı incələyərək, keçmiş müəlliflərin dağınıq əsərlərini toplayaraq hicri 400-cü ildə "Nəhc əl-bəlağə"ni elm və düşüncə dünyasına təqdim emişdir. Seyid Rəzi nəhayət, qısa, eyni halda məhsuldar ömür sürdükdən sonra məhərrəm ayının (h. q. 406-cı il) altısında, bazar günü, 47 yaşında Bağdadda dünyasını dəyişdi. Onun cənazəsi əmanət olaraq Kazimeyndə İmam Musa Kazimin (ə) məzarı yaxınlığında dəfn olundu. Bir müddətdən sonra (öz vəsiyyətinə əsasən) onun və qardaşı Seyid Mürtəzanın cəsədi Kərbəlaya köçürüldü və orada torpağa tapşırıldı.

"Nəhc əl-bəlağə" müxtəlif cəhətlərdən böyük əhəmiyyət kəsb edir.

Demək olar ki, "Nəhc əl-bəlağə" əsasən İslam maarifi toplusudur. Bir müsəlman insana, bir müsəlman cəmiyyətə lazım olan hər şey haqqında bir söz, bir işarə, bir bəhs, bir istiqamət "Nəhc əl-bəlağə"də keçmişdir. Tövhiddən, İslam etiqadlarından, dinin əsaslarından tutmuş, əxlaqa, nəfsi saflaşdırmağa aid hər şey öz əksini tapmışdır.

Buraya siyasi hakimiyyət, böyük ictimai fəaliyyətləri idarə üsulu, etik münasibətlər, ailə münasibətləri, döyüş, siyasət, hikmət, elm və s. də daxildir.[1]

*     *     *

Fikrimcə, kitab mərhum Seyid Rəzinin diqqətini fəsahət, bəlağət, incəsənət nümunələri toplusu kimi cəlb etmişdir. Kitabın adı da həmin məqamı təsdiq edir.[2]

*     *     *

Xoşbəxtlikdən bu gün "Nəhc əl-bəlağə"dəkindən bir neçə dəfə artıq xütbə bizim ixtiyarımızdadır. Lakin mərhum Seyid Rəzinin toplayıb ərsəyə gətirdiyi "Nəhc əl-bəlağə" bu çıxışların, kəlamların yalnız seçilmiş bir hissəsidir.

Elə isə Seyid Rəzi bu seçimi hansı əsasla aparmışdır? İctimai və ya fəlsəfi baxışlamı? Təəssüflər olsun ki, "xeyr", - deməliyəm. Seyid Rəzi diqqətini daha çox incəsənət estetizminə yönəltmişdir. Məhz bu səbəbdən də kitabın adını "Nəhc əl-bəlağə", yəni “bəlağətin, gözəl nitqin yolu" qoymuşdur. Halbuki İmam Əli (ə) bu xütbələrdə bütün İslami məsələlər haqqında söhbət açmışdır.[3]

*     *     *

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresindəki çıxışı, 1363.
[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresindəki çıxışı, 1363.
[3] "Ələvi hökumət haqqında bir neçə söz" səh. 10

"Nəhc əl-bəlağə" incəsənət baxımından fövqəladə, sözlərin gözəlliyi və bəlağət baxımından mötəbər əsərdir. Biz öz dövrümüzdə və ya digər dövrlərdə Əli (ə) qədər bəlağətli, cəlbedici danışan heç bir yazıçıya, şairə rast gəlməmişik. Amma eyni halda qısaca mənanı başa salan kəlamlar da tapmaq olar. Biz nə qədər irəliyə doğru getsək, "Nəhc əl-bəlağə"nin mətni ilə nə qədər tanış olsaq, incəliklərini, gözəlliklərini də o qədər çox hiss edəcəyik.[1]

* * *

Doğrudur, Seyid Rəzi bu kitabı yalnız bəlağət imtiyazı baxımından toplamışdır. Buna baxmayaraq, məzmununa da diqqət yetirməmiş deyil. Şübhəsiz, kəlamların məzmunu da onun diqqətindən yayınmayıb. Ancaq – dövrünün ən böyük ərəb şairlərindən olan görkəmli fəsih – Seyid Rəzi "Nəhc əl-bəlağə"yə şaircəsinə, söz ustası kimi yanaşmışdır. O, öz axtarışında gözəl kəlamları tapmağa çalışmışdır.

Əlbəttə, İmam Əlinin (ə) kəlamları gözəldir. O, fəsahət baxımından ən yüksək həddə olması ilə yanaşı ən yüksək məzmuna da malikdir. Fəsahət, bədii üslub baxımından həmin yüksəklikdə olmayan kəlamları olsa belə məzmunca ən yüksək səviyyədədir. Lakin – öncə də qeyd etdiyimiz kimi – Seyid Rəzi daha çox bu cəhətə diqqət yetirmişdir.[2]

* * *

***Sual:*** Siz dediniz ki, "Nəhc əl-bəlağə" daha çox incəsənət imtiyazı baxımından toplanmışdır. Onu toplayanın xütbələri gözəlləşdirməsi üçün onlara əl vurması (dəyişiklik aparması) mümkün deyilmi?

***Cavab:*** Xeyr, əsla! Çünki onları toplayan özünün bu sözlər, gözəlliklər qarşısında kiçik, aciz olduğunu görürdü. Bu

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

[2] "Nəhc əl-bəlağə"dən dərslər", səh. 14

ona bənzəyir ki, siz deyirsiniz: Misal üçün, hardan məlumdur ki, Hafizin divanını toplayanlar – Doktor Qəni, Əllamə Qəzvini, Əbdurrəhim Xalxali – onun şeirlərini gözəlləşdirmək üçün əl vurmamışlar? Halbuki Hafizin şeirləri Qəninin, Qəzvininin, Xalxalinin şeir məharətindən daha yüksəkdə durur. İmamın (ə) kəlamının gözəlliyi elə bir həddədir ki, Seyid Rəzi kimi görkəmli şair bu incəsənət qaynağına, "Nəhc əl-bəlağə"yə baxdıqda kiçiklik, acizlik hiss edir. Birincisi, o, öz sözünü İmamın (ə) sözlərinə əlavə etmək yox, İmamın (ə) sözlərindən iqtibas edə, öz sözlərində yerləşdirə bilərdi ki, sözləri gözəl olsun. İkincisi, Seyid Rəzi tam mötəbər, sədaqətli insandır. Bizim onun haqqında belə bir ehtimal verməyimiz mümkün deyil.[1]

* * *

Əlbəttə ki, Seyid Rəzi bu işə başlamazdan öncə o həzrətin (ə) xütbələri, məktubları, kəlamları hədis və tarix kitablarında pərakəndə şəkildə mövcud idi və bir yerə toplanmamışdı. Seyid Rəzidən öncə də bəziləri bu işi bu və ya digər şəkildə görmüşdülər.[2] Amma onlar bu işi Seyid Rəzinin gördüyü şəkildə həyata keçirə bilməmişdilər.

Buna görə də biz "Nəhc əl-bəlağə"ni bizə irs qoymuş o böyük alimin təşəbbüsünə, zəhmətlərinə borcluyuq.[3]

* * *

Həzrət Əbd əl-Əzim Həsəni[1] elmi baxımdan böyük mühəddis (hədisşünas) və müəllifdir.

---

[1] Yenə orada, səh. 25

[2] Tədqiqatçı alim Əbd əz-Zəhra Hüseyni "Məsadir Nəhc əl-bəlağə" kitabında digər 46 kitabın da adını çəkir ki, İmam Əli ibn Əbu Talibin (ə) sözlərini tapmaq məqsədi ilə yazılmışdır. Bunların 22-si "Nəhc əl-bəlağə"dən öncə ərsəyə gəlmişdir ("Nəhc əl-bəlağə ilə tanışlıq toplusu", c. 2, səh. 68).

[3] "Nəhc əl-bəlağədən dərslər", səh. 3

Bizə məlum olduğu qədər o, İmam Əlinin (ə) xütbələrini toplayan ilk şəxsdir. Bu Seyid Rəzinin "Nəhc əl-bəlağə"ni toplamasından 150 il öncə baş vermişdir[2].

Diqqət yetirilməli digər bir məqam budur ki, İmam Əlinin (ə) "Nəhc əl-bəlağə"də yer alan xütbə, məktub və kəlamlarından başqa çoxlu sayda xütbələri, məktub və kəlamları müxtəlif kitablarda mövcuddur. O dövrlərdə alimlər bu irsi toplamağa çalışmış və "Müstədrək Nəhc əl-bəlağə", yəni "Nəhc əl-bəlağə-də olmayanlar" adı altında tənzim etmişlər. Demək, bizim çox zəngin və dəyərli xəzinə olan "Nəhc əl-bəlağə"dən başqa bir neçə kitabımız da var. Bunlar haqda sonradan bütün özəllikləri ilə məlumat verəcəyik. Çünki onların bəzisi çap olunmuşdur. Sonradan sizə bu haqda məlumat verəcəyik ki, "Nəhc əl-bəlağə" və ondan sonra qələmə alınan əsərlərlə[3] tanış olasınız[4].[5]

---

[1] Seyid əbd əl-Kərim kimi şöhrət qazanmış həzrət Əbd əl-Əzim Həsəni ibn Abdullah ibn Əli ibn Həsən ibn Həsən ibn Zeyd ibn Həsən (ə) ibn Əli (ə) ibn əbu Talib (ə). Onun nəsli beş vasitə ilə İmam Əliyə (ə) çatır. O, hicri 173-cü ildə Mədinədə dünyaya göz açmışdır. 79 il ömür sürmüş, hicri 252-ci ildə 15 şəvvalda Rey şəhərində vəfat etmişdir.

[2] Böyük Rəhbərin Rey əhalisi ilə görüşdə çıxışı, "İslam Respublikası" ("Cumhuriye-İslami") qəzeti, azər ayı, 1373.

[3] "Nəhc əl-bəlağə" ilə bağlı kitablar haqqında Rza Ustadinin "Kitabnameyi-Nəhc əl-bəlağə" əsərinə müraciət edin. Burada "Nəhc əl-bəlağə" ilə bağlı 370 kitab haqda məlumat verilmişdir.

[4] "Nəhc əl-bəlağədən dərslər", səh. 3

[5] Bəzi tədqiqatçılar "Nəhc əl-bəlağənin sənədi ilə bağlı araşdırmalar zamanı aşağıdakı nəticələri əldə etmişlər:

a) Seyid Rəzi İmamın (ə) bütün kəlamlarını kitaba daxil etməmişdir;

b) Bəzən bir xütbəni, məktubu və ya hikmətli kəlamı nəql edərkən öz səliqəsini işə salmış, bir xütbənin yalnız bir hissəsini, bəlağət baxımından cəzbedici və gözəl olan hissəsini kitaba daxil etmiş, digər hissəsini isə ixtisara salmışdır. Buna görə də (tədqiqatçılar) çox dəyərli bir işə, İmamın (ə) digər kəlamlarını da toplamağa başladılar. Xütbə və məktubları ilkin qaynaqlarda olduğu kimi yazdılar. Bu kitablara misal olaraq aşağıdakı nümunələri göstərmək olar:

Hadi Kaşif əl-Qitanın "Müstədrəki-Nəhc əl-bəlağə" əsəri;

Məhəmməd Baqir Məhmudinin 8 cildlik "Nəhc əs-səadə" əsəri;

İsmayıl Hələbinin "Kitab ət-təzyil" əsəri;

"Nəhc əl-bəlağə" ilə bağlı bilməniz zəruri olan digər bir məsələ budur ki, bir neçə il öncə bəziləri "Nəhc əl-bəlağə"nin mötəbər kitab olmadığını iddia etdilər. Onların məqsədi qaranlıqdır. Bu kitabın məzmunu müxtəlif qruplaşmaların, zümrələrin, yaxud firqə mənsublarının mənafeyi üçün təhlükə yaradır. Onlar üçün ən yaxşı və ən uyğun yol bu kitabı dəyərdən, etibardan salmaqdır. Bir şəxsiyyət haqqında da belədir. İmam Əli (ə) şəxsiyyətini öz şəxsi və ya kollektiv mənafeləri üçün təhlükə hesab edənlərin o şəxsiyyəti gözdən salma cəhdləri şübhəsizdir. O həzrətin (ə) kitabı ilə bağlı da eyni ilə bu cür davranmışlar.[1]

* * *

"Nəhc əl-bəlağə" həqiqətən də dərin və sonsuz bir dəryadır. Hamı bu kitabı layiq olduğu şəkildə qavraya bilmir. Halbuki bu kitabın ehtiva etdiyi maarif xalqa lazımdır.[2]

* * *

---

Əhməd ibn Yəhyanın "Mülhəq Nəhc əl-bəlağə" əsəri;
Xələf ibn Seyid Əbd əl-Müttəlibin "Nəhc ət-təqvim" əsəri;
Seyid Həsən Mircahani Təbatəbainin "Misbah əl-bəlağə" əsəri;
Amudinin "Qürər əl-hikəm" əsəri;
İbn Əbu əl-Hədidin "əl-Hikəm əl-mənsurə" əsəri (Şərhi-İbn Əbu əl-Hədidin son cildi) (Nəhc əl-bəlağə ilə tanışlıq toplusu", c. 2, səh. 172).

[1] "Nəhc əl-bəlağə"dən dərslər, səh. 4

[2] "Peyamha və xitabə", səh. 113

# İkinci fəsil

## *"Nəhc əl-bəlağə"nin tarixçəsi*

"Nəhc əl-bəlağə" əsərinin ərsəyə gəlməsindən (tərtibindən) təqribən min il keçir. Yəni bu xütbələri, məktubları toplayan Seyid Rəzi bu işi təqribən hicri 400-cü ildə (3-cü əsrin sonlarında) görmüşdür. Bu baxımdan "Nəhc əl-bəlağə" min illik kitabdır.[1]

* * *

"Nəhc əl-bəlağə"nin bir hissəsi İmam Əlinin (ə) nitqləridir. Bu nitqlər o qədər dərin məzmuna malikdir ki, kitabın tənzim olunmasından bu günədək (min illik dövrdə) bu çıxışlar haqqında yüzlərlə kitablar yazılmış, onları izah etməyə çalışmışlar. Diqqət yetirirsinizmi, bu yüksək səviyyəli çıxışlar – hansı ki, əhli-sünnə və şiə alimləri, böyük mütəfəkkirlər haqqında şərhlər yazmışlar – harada həyata keçmişdir? Kufə məscidində. Nə zaman? Hicri 35 və 40-cı illər arasında (1360 il öncə). O dövrdə İslam cəmiyyətində yaşayan xalqın düşüncə və mədəni səviyyəsi o qədər yüksək idi ki, Əli ibn Əbu Talib (ə) bu dərin mənalı sözləri minbərdə deyərkən hamı, uşaq da, böyük də onu anlayır, başa düşürdü. Deməli, gördüyünüz kimi ələvi cəmiyyətin mədəni səviyyəsi o qədər yüksəkdir ki, "Nəhc əl-bəlağə"ni başa düşür.[2]

* * *

Biz onun qədrini bu gün min illik bir zamandan sonra ("Nəhc əl-bəlağə"nin təlifindən min il keçdikdən sonra) hicri dördüncü əsrdə yaşayan böyük alimdən daha çox bilirik.

---

[1] "Nəhc əl-bəlağədən dərslər", səh.3
[2] "Ələvi hakimiyyət haqqında bir neçə söz", səh. 4

Hazırda biz hicri XIV əsrdəyik. Yəni bəşəriyyət təbii olaraq çətinliyə doğru irəliləmiş və Əli (ə) sözü, Əli (ə) buyuruğu, ondan eşitdiyi İslam ahəngi onun üçün əsrlər öncəsindən daha qənimətdir.[1]

*　　*　　*

Birincisi, bu kitab bir ilkin İslami qaynaqdır. İslamın erkən çağlarından təqribən 1400 illik fasiləsi olan hazırkı tarixi şəraitdə ilkin qaynaqlar xüsusi əhəmiyyətə malikdir.[2]

*　　*　　*

Əgər biz İslamın erkən çağlarına aid mətnləri dirildə bilsək, bu ictihadlar üçün ümdə mehvər yaradılmasına böyük kömək etmiş olacağıq. "Nəhc əl-bəlağə"yə bu baxışla yanaşaq. Bu baxımdan "Nəhc əl-bəlağə" hicrətdən 50, 60, 100 və ya 140 il sonra ərsəyə gəlmiş filan səhabə və ya tabeinin hədis kitabı ilə müqayisə olunası deyil.[3]

*　　*　　*

Bu şərafətli kitabın tənzimlənməsindən keçən min il müddətində bir çox lazımi işlər görülmüşdür. Güman ki, kitabxanalarda bu dəyərli əsərlərin əlyazmaları qorunub saxlanılmışdır. Bunları axtarıb tapmaq, üzə çıxarmaq lazımdır. Bir ehtimal da var ki, onların bəzisi zaman-zaman hadisələrə məruz qalmış və itib-batmışdır. Hər halda bu işlər həyata keçirilməlidir.[4]

*　　*　　*

---

[1] "Nəhc əl-bəlağədən dərslər", səh. 15
[2] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[3] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[4] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)

Tədqiqatçılar "Nəhc əl-bəlağə"nin bu zaman üçün qədrini bilməlidirlər. Həqiqət budur ki, biz bu gün "Nəhc əl-bəlağənin minilliyi" qurultayı keçirdiyimiz halda bilməliyik ki, bu əziz kitab ən azı 950, min il küncə qapılmış, sükuta qərq olmuşdur. Alimlərdən, tədqiqatçılardan başqa heç kim "Nəhc əl-bəlağə"nin adından savayı bir şey bilmirdi.[1]

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağə”nin minilliyi konqresində çıxışı (1360)

# Üçüncü fəsil

## *"Nəhc əl-bəlağə"də həzrət Əlinin (ə) şəxsiyyəti*

"Nəhc əl-bəlağə"nin digər dəyərli və əhəmiyyətli cəhətlərindən biri də İmam Əlinin (ə) şəxsiyyətinin təsviridir. Bu, bizim hazırda tam ehtiyacımız olan şeydir.

İmam Əli (ə), bu tanınmamış sima, bu ülvi insan, İslamın insanların belə tərbiyə olunmasını istədiyi kamil müsəlmanlıq nümunəsi "Nəhc əl-bəlağə"nin vərəqləri, sətirləri arasında tam olaraq tanınır, tərif verilir. "Nəhc əl-bəlağə" əslində Əli ibn Əbu Talibi (ə) tanıtdıran kitabdır. Necə ola bilər ki, bir nəfər "Nəhc əl-bəlağə"dəki əsrarəngiz düşüncə üfüqlərinə, qəribə və müxtəlif idrak vadilərinə  vaqif olmadan onları bu qədər gözəl və cazibəli şəkildə təsvir və vəsf etsin?!

"Nəhc əl-bəlağə"də bir ülvi insan şəxsiyyətinin bütün tərəfləri mövcuddur. "Nəhc əl-bəlağə"də bir kamil insan təcəssüm etmişdir. Bu kamil insan İmam Əlinin (ə) özüdür. Bu, yalnız İmam Əlinin (ə) simasını tanımaq baxımından yox, həm də İslamı tanımaq, onun bir insanı necə tərbiyə edəcəyi, formalaşdıra biləcəyi baxımdan olduqca əhəmiyyətlidir. Bu gün müasir bəşəriyyət bizdən soruşur: "Sizin dəm vurduğunuz İslam, missiyasının cahanşümul olduğunu düşündüyünüz İslam necə İnsan formalaşdırmaq niyyətindədir?" Bu suala cavab üçün İmam Əlidən (ə) daha yaxşı, daha gözəl, daha əhatəli, daha ülvi kimi göstərmək olar? İmam Əlinin (ə) siması heç bir yerdə "Nəhc əl-bəlağə"də olduğu qədər aşkar deyil.[1]

*    *    *

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

Əslində "Nəhc əl-bəlağə" İmam Əlinin (ə) rəsmi və fikri şəxsiyyətidir. İmam (ə) özü "Nəhc əl-bəlağə"də təcəssüm tapmışdır. Bu, İmam Əlinin (ə) xüsusiyyətlərindən biridir. O, dediyinə əməl edir, istədiyini (öncə) öz şəxsi həyatında gerçəkləşdirir.

İmam Əlinin (ə) şəxsiyyəti özü sözbəsöz, sətirbəsətir "Nəhc əl-bəlağə" və Quranın təfsiri, izahıdır. Buna görə də siz "Nəhc əl-bəlağə"ni oxuduqda həm İmam Əlinin (ə) həyat tarixini bilir, həm də İmamı (ə) tanıyırsınız.[1]

* * *

Bu kitabda yer alan məsələlər ümumilikdə müsəlmanlar üçün ictimai həyat dərsidir və həyatdan təcrid olunmuş şəkildə verilməmişdir. Bu sözləri deyən ölkə başçısı, böyük hakim və komandandır. Onun hakimiyyəti böyük və geniş bir ərazini əhatə etmişdir. Hakimiyyət məsuliyyətini çiyinlərində daşıyan bu böyük insan böyük məsuliyyət hissi ilə bu sözləri dilə gətirmişdir. "Nəhc əl-bəlağə" dünya hay-küyündən kənar, bu və ya digər cəmiyyətdə mövcud gerçəklərdən, problemlərdən uzaq bir filosofun sözləri, İslam maarifi haqqındakı fikirləri deyil. Bu, böyük bir cəmiyyəti idarə etmək məsuliyyətini üzərində hiss edən, din bilicisi, bütün İslam və Quran maarifini dərindən bilən, xalqla idrak dolu bir ürəklə, böyük ruhla, məsuliyyətli bir vəzifə ilə üz-üzə gəlib, onlarla söhbət edən, suallarına cavab verən bir şəxsiyyətin kəlamlarıdır. "Nəhc əl-bəlağə" belə bir vəziyyətdə meydana gəlmişdir.[2]

* * *

O böyük insan tarixdə Allahın təəccüb doğuran möcüzələrindən biri idi. Digər təəccüb doğuran bir məsələ də İmam Əlinin (ə) öz dövründə qədrinin bilinməməsidir. Bu,

---

[1] "Ələvi hökumət haqqında bir neçə söz", səh. 13
[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

həqiqətən də qəribə və acı hadisələrdəndir. İşi o yerə çatdırmışdılar ki, - "Nəhc əl-bəlağə"də qeyd olunduğuna görə - o həzrət (ə) öz hakimiyyəti dönəmində dəfələrlə camaatdan Allaha şikayət edir, gileylənirdi. O böyük insanın qəlbi qanla dolu idi. Bu qədər ürək genişliyinə, bu qədər Allah yolunda ilahi hökmlər yönündə fədakarlığa baxmayaraq, həyatı boyunca sıxıntıda idi.[1]

*      *      *

[1] Tehranda cümə namazı xütbələri (1371. 1. 7; "İslam Respublikası" qəzeti, 1371. 1. 81)

# Dördüncü fəsil

## *"Nəhc əl-bəlağə"nin tərcüməçisi Feyz əl-İslam*

"Nəhc əl-bəlağə"nin fars dilinə tərcüməsi hörmətli tərcüməçi ruhani Seyid Əli Nəqi Feyz əl-İslam tərəfindən həyata keçirilmişdir. O, bu kitabı hamının başa düşəcəyi vəziyyətə gətirən, xalqın ixtiyarına verən ilk şəxsdir. Onun bu işi çox əhəmiyyətli addım idi. Mən bu təşəbbüsü yüksək qiymətləndirirəm.[1]

* * *

Bu kitabı ilk dəfə fars dilinə tərcümə edən, xalqın ixtiyarına verən, "Nəhc əl-bəlağə"nin səsini ilk dəfə xalqın qulağına yetirən görkəmli alim Feyz əl-İslama təşəkkür etdim. Bir daha təşəkkür edirəm. Həmçinin öz növbəmdə "Nəhc əl-bəlağə"nin bir qismini və ya azad, məzmununu bəyan etməklə tərcümə edən digər hörmətli müəlliflərə təşəkkürümü bildirirəm. [2]

Bizim dövrümüzdə "Nəhc əl-bəlağə"ni ilk dəfə tanıtdıran mərhum Feyz əl-İslam oldu. O, Tehranın böyük alimlərindən idi. Məlumatlı, ixlaslı, ziyalı alim idi. O, (aramızdan) getdi. Amma "Nəhc əl-bəlağə"nin çox zəngin tərcüməsini xalqın ixtiyarına verdi.

Mən özümə borc bilirəm ki, ömür boyu hətta bir dəfə də yaxından görmədiyim o fəzilətli Seyidin bu xidmətini hər yerdə dilə gətirim (O, son günlərdə dünyasını dəyişmişdir). Qoy, onun İran cəmiyyətinə bu xidməti unudulmasın.

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi " konqresində çıxışı (birinci konqres, 1360)

[2] Böyük Rəhbərin “Nəhc əl-bəlağə”nin minilliyi konqresində çıxışı (1363)

Feyz əl-İslamın[1] tərcüməsi ərsəyə gəlməzdən, ixtiyarımıza verilməzdən öncə Molla Fəthullah Kaşani və qədimi kitablardan, ərəb dilində yazılmış şərhlərdən başqa əlimizdə bir kitab yox idi.

Bunlardan öncə də xalq arasında, ziyalı, tələbə, şagird mühitində, hətta dini elm mərkəzlərində, dini təhsil alan tələbələr arasında "Nəhc əl-bəlağə"dən əsər-əlamət yox idi. Biz bu gün bu nemətin şükrünü "Nəhc əl-bəlağə"yə əməl etməklə bildirməliyik.[2]

*    *    *

*    *    *

---

[1] Mərhum Seyid Əli Nəqi Məhəmməd Dibaç Feyz əl-İslam h. ş. 1290-cı ildə İsfahan kəndlərindən birində dünyaya göz açmışdır. Mövcud nəsil şəcərəsinə görə Mərhum Feyz əl-İslamın nəsli qırx vasitə ilə İmam Əliyə (ə) çatır. Mərhum Feyz əl-İslam beş yaşından qardaşı Seyid Qiyas əd-Dinin yanında şəriət elmlərini öyrənməyə başladı. O, öz təhsilini Tehran, Məşhəd və Nəcəf dini elm mərkəzlərində təkmilləşdirib mərhum Ayətullah Seyid Əbül-Həsən İsfahani, mərhum Şeyx Ziya əd-Din İraqi, mərhum Şeyx Əli Əkbər Nəhavəndi, mərhum Şeyx Məhəmməd Kazım Şirazi kimi ustadlardan dərs aldı. Bu müddətdə "Nəhc əl-bəlağə"nin tərcümə və şərhini də ciddi şəkildə davam etdirdi. "Nəhc əl-bəlağə"nin yalnız sənədlərinin toplanması və qeydlərin götürülməsi işi 17 il uzandı. Onun qələmə alınması altı ilə (h. q. 1365-dən 1371-ci ilə qədər) başa gəldi və altı cilddə tərtib olundu. "Nəhc əl-bəlağə"nin bu tərcümə və şərhi indiyədək bir milyondan çox tirajla çap olunmuş və xalqın ixtiyarına verilmişdir.

Mərhum Feyzül-İslam 24 ordibehişt, h. ş. 1364-cü ildə 73 yaşında dünyasını dəyişdi ("Keyhan" qəzeti").

[2] Böyük Rəhbərin “Nəhc əl-bəlağə” müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

# Beşinci fəsil

## *Quran və “Nəhc əl-bəlağə”*

Bu kitab Quranla yanaşı qoyulduqda şübhəsiz, ondan sonra birinci yerdə durur. Yəni bizim bu dərəcədə etibarlı, əhatəli, qədim başqa kitabımız yoxdur. Məhz buna görə də "Nəhc əl-bəlağə"ni canlandırmaq yalnız biz şiələrin vəzifəsi deyil. Bu, bütün müsəlmanların vəzifəsidir. Yəni İmam Əlini (ə) qəbul edən, müsəlman olan hər bir insanın borcudur. – Çünki İslamda bu böyük insanı qəbul etməyən kimsə yoxdur. – "Nəhc əl-bəlağə"ni bənzərsiz İslam irsi olaraq yaşatmaq, canlandırmaq lazımdır. Bu canlandırmaqda məqsəd çapını çoxaltmaq deyil, – lazımınca çox çap olmuşdur. – Burada məqsəd "Nəhc əl-bəlağə" ilə bağlı tədqiqat aparmaq, işləməkdir.

Quran sahəsində çoxlu iş aparıldığı, çoxlu təfsirlər yazıldığı kimi "Nəhc əl-bəlağə" haqqında da bu işlər görülməlidir. Quran oxunduğu kimi "Nəhc əl-bəlağə" də oxunmalıdır. Çünki Quranın ardı, davamıdır. Müsəlmanlar Quranla üns bağladıqları, Quranı bilməməyi özləri üçün nöqsan hesab etdikləri kimi "Nəhc əl-bəlağə"ni də bilməməyi nöqsan hesab etməlidirlər.[1]

* * *

Cəmiyyətmizdə "Nəhc əl-bəlağə"nin tam və əhatəli tərcüməsinin, eləcə də Quranın tam, aydın tərcüməsinin yeri boşdur. Mən, artıq neçənci dəfədir ki, Quranı yaxşı tərcümə edə biləcək mütəxəssislərdən xahiş edirəm ki, bu işi görsünlər. İslam Respublikası beş ildən sonra zənnimcə gecikmişdir. Bu iş daha tez həyata keçirilməli idi. Hər keçən gün daha gec olur. Zənnimcə, bir neçə nəfərin bu iki müqəddəs əsərin

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)

tərcüməsinə başlamasının, bacardıqları qədər irəliləmələrinin eybi yoxdur. Çünki hər halda heç bir tərcümə kamil olmayacaq. Yəni filan güclü ərəb dili mütəxəssisinin, filan mahir tərcüməçinin "Nəhc əl-bəlağə"ni təcümə etməyə başladığını eşitdikdə əllərini işdən çəkməsinlər, işlərini davam etdirsinlər. Kim özündə maraq, şövq hiss edirsə, işə başlasın. Əgər Quran və "Nəhc əl-bəlağə"nin on yaxşı tərcüməsi olsa, yenə çox deyil. Bir ayə və ya cümlə ilə bağlı müxtəlif baxışların, fərqli zövqlərin oxucunu o cümlənin gerçək tərəflərinə daha yaxın edə bilməsinin heç bir eybi yoxdur. Buna görə də mən bu işi bu gün birinci dərəcəli iş hesab edirəm.[1]

*   *   *

Quranla tanışlıq universitetlərdə adi hal olmalıdır ki, Quran maarifi, Quran ruhu elm mərkəzlərinə hakim kəsilsin. Hədis sahəsində isə bizim "Nəhc əl-bəlağə"miz var.

O, tam, kamil hədis toplusudur və bizim bugünkü problemlərimizin həlli yolları, ehtiyaclarımız bu kitabda toplanmışdır.[2]

Quran və "Nəhc əl-bəlağə" ilə üns bağlamaq çox qəribə şeydir. "Nəhc əl-bəlağə" həqiqətən də Quranın davamıdır. İnsan "Nəhc əl-bəlağə" və ya "Səhifeyi-Səccadiyə" ilə üns

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363) Qeyd etmək lazımdır ki, xoşbəxtlikdən Rəhbərin çıxışından keçən bir neçə ildə Quran və "Nəhc əl-bəlağə"nin tərcüməsi sahəsində yaxşı, təqdirəlayiq işlər görülmüşdür.

1. Ayətullah Məkarim Şirazi, Əbd əl-Məhəmməd Ayəti, Məhəmməd Xacəvi, Cəlalədddin Farsi, Bəhaəddin Xürrəmşahi və başqalarının Quran tərcüməsi

2. Doktor Cəfər Şəhidi, Əbd əl-Məcid Məadixah, Əli Əsğər Fəqihi, Doktor Əzizullah Cuveyninin Nəhc əl-bəlağə tərcümələri

[2] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının ikinci ildönümü münasibəti ilə keçirlən seminarda çıxışı, Tehran universiteti, Firdovsi toplantı zalı (65. 9. 17)

bağladıqda xalis İslamdan bəzi həqiqətlərin ixtiyarında olduğunu görür.[1]

*  *  *

[1] Böyük Rəhbərin "İslam Təbliğat Təşkilatının incəsənət mənsubları ilə görüşdə çıxışı (72. 7. 12)

# Altıncı fəsil

## *"Nəhc əl-bəlağə"nin İslam cəmiyyətində rolu*

Təəssüflər olsun ki, biz İran cəmiyyəti olaraq əsrlər boyu şərif, nurani "Nəhc əl-bəlağə" kitabından məhrum olmuşuq. Tam xoşbəxt insan həyatını, bütün tərəfləri ilə, bütün xüsusiyyətləri ilə "Nəhc əl-bəlağə"dən öyrənmək olar. Əgər özümüzü tərbiyə etmək, insana layiq cəmiyyət qurmaq istəsək, şəxsi əxlaqa, xarakterə, yaxşı əqidəyə, şənliyə, ümidə, uzaqgörənliyə, özünütərbiyəyə nail olmaq, vəzifəmizə əməl etmək, başdan-ayağa zəka və haqqın hakim kəsildiyi cəmiyyətimiz olmasını, ümidlə, qələbə ilə, uğurla çalışmaq, alimcəsinə və doğru fəlsəfə əsasında hərəkət etmək istəyiriksə, bütün bu dərsləri "Nəhc əl-bəlağə"dən öyrənməliyik.[1]

* * *

İnsanın fərdi özünütərbiyəsi, ictimai həyatını qurması zəruridir. Əlbəttə ki, "Nəhc əl-bəlağə"nin ürfani cəhətləri də var ki, mən özümü bu tərəfləri başa düşəcək, dərk edəcək məqamdan aşağıda görürəm. (Buna görə də) O kəlmələrin zahiri, ibtidai mənasını deməklə kifayətlənib üstündən keçirəm. Onları da Allah adamları, arif zümrə, hikmət sahibi olanlar, Allaha yaxın könüllər başa düşə bilərlər.[2]

* * *

İmam Əli (ə) öz çıxışlarında nə deyir?

Həm İslam cəmiyyətinin hakimi, həm də hikmət sahibi olan bu əmir nə demişdir? Məlumdur ki, onun sözləri aktualdır,

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsbiqələrində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsbiqələrində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

mövcud ehtiyaclara uyğundur. O, həmin tarixi zaman kəsiyində mövcud şəraitin tələbi olan ehtiyacları dilə gətirmişdir. Ondan başqa bir şey deməsi mümkün deyil. Ola bilməz ki, mahir ürəyiyanan təbib xəstəsinin ehtiyacı olmadan nüsxə yazsın. Deməк, biz İmam Əlinin (ə) nüsxəsindən digər bir şey də başa düşürük və bu o günün İslam cəmiyyətinin vəziyyətidir.[1]

*   *   *

Bizi keçmişdən daha çox "Nəhc əl-bəlağə"yə bağlayan, möhtac edən, bizdə maraq oyadan digər həqiqət isə budur ki, İslam tarixi boyunca – təəssüf ki, – bir tərəfdən cəhalətdən, digər tərəfdən isə qərəzlilik, düşmənçilik səbəbilə meydana gələn yanlışlıqlar, yoldan azmalar ixtiyarımızda olan İslam maarifində çaşqınlıqlar yaratmışdır.[2]

*   *   *

Bir müddətdir "Nəhc əl-bəlağə" müəyyən mənada unudulmuş vəziyyətdən çıxmış, adi xalqın qulağına çatmış, bu və ya digər şəkildə xalqın ixtiyarına verilmişdir. Lakin buna baxmayaraq, bu kitab haqqında daha çox hərtərəfli elmi tədqiqat aparılması lazım olduğu qənaətindəyəm. Əlbəttə ki, bu günədək görülmüş işlər, bir qismi "Nəhc əl-bəlağə haqqında kitablar" ("Kitabnameye-Nəhc əl-bəlağə") əsərində yer alan elmi-tədqiqat işləri təqdirəlayiqdir.[3]

*   *   *

"Nəhc əl-bəlağə"yə yönəltməli olduğumuz diqqət haqqında xəbərdarlıq etmək istəyirəm. Bizdə bu gün lazımi diqqət, qayğı yoxdur. Sanki bu kitabda necə sonsuz bilik xəzinəsi

---

[1] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)
[3] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

olduğunu bilmirik. Yaxud da hələ xalqımız, hətta tədqiqatçılar bu kitabın sonsuz, böyük qaynağına yaxınlığın əhəmiyyətini tam olaraq başa düşməyiblər.[1]

*  *  *

Əgər bu şəkildə özünüzü Quran, "Nəhc əl-bəlağə" və İslamla tanış etməkdə davam etsəniz dünyanın cah-calal imperatorluqlarının əsasları sizin vasitənizlə sarsılacaq. Buna görə də sizdən qorxurlar.[2]

*  *  *

Tədqiqatçılar "Nəhc əl-bəlağə"nin bu gün üçün qədrini bilsinlər. Həqiqət budur ki, biz bu gün "Nəhc əl-bəlağənin minilliyi"ni keçirdiyimiz bir halda bilməliyik ki, bu əziz kitab sözügedən min ilin ən azı doqquz yüz əlli ilini küncə qapılmış, sükuta qərq olmuşdur. Belə ki, alimlərdən başqa kimsə "Nəhc əl-bəlağə"nin adından savayı bir şey bilməmişdir.[3]

*  *  *

Bu İnqilab İmam Əlinin (ə) təlimləri sayəsində Qurana, "Nəhc əl-bəlağə"yə söykənərək qələbə çalmışdır.

Bu gün təqribən həmin İslam cəmiyyəti, ələvi cəmiyyət qurulmuşdur. Bu şərait ölkəmizdə, cəmiyyətimizdə bir çox sahələrə hakimdir.

Bu gün "Nəhc əl-bəlağə"dən bacardıqca daha çox faydalanmaq vaxtıdır.[4]

---

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsabiqələrində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

[3] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

[4] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)

Bugünkü şərait İmam Əlinin (ə) hakimiyyəti dönəmindəki şəraitə bənzərdir. Deməli, dövran "Nəhc əl-bəlağə" dövranıdır. Bu gün dünya və cəmiyyətdəki gerçəkliklərə İmam Əlinin (ə) baxışı ilə baxmaq, bir çox həqiqətləri görmək, dərdlərin əlacını tapmaq olar. Belə buna görə də biz həmişəkindən daha çox "Nəhc əl-bəlağə"yə möhtac olduğumuzu düşünürük.[1]

*    *    *

Bu gün "Nəhc əl-bəlağə" bizim üçün fərqli cəhətlərdən həssasdır. Təkid edirəm ki, bu kitab bənzərsiz, sonsuz xəzinədir. Bu gün də İslam cəmiyyəti, müsəlman xalqlar ona həmişəkindən daha ehtiyaclıdırlar.[2]

Olduqca sevindirici haldır ki, "Nəhc əl-bəlağə" fondunda fəaliyyət göstərən qardaşların səyi ilə bu şərif kitab haqqında digər bir toplantının şahidi oluruq. Mən bir müsəlman kimi, düşüncəli həyatının, mütaliələrinin bir hissəsini bu kitaba həsr etmiş bir şəxs olaraq, İslam Respublikasında yüksək vəzifə daşıyan şəxs kimi bu hərəkatın uğurlu, zəruri, müsbət nəticəli olacağı, hazırki mərhələnin son mərhələyə keçid üçün başlanğıc olduğu qənaətindəyəm.[3]

*    *    *

Qardaşların təlaşları təqdirəlayiqdir. Amma bu qədərlə kifayətlənmək də olmaz. "Nəhc əl-bəlağə"yə xidmət davamlı şəkil olmalıdır. Bu ilki konqreslə keçən ilki konqres arasında bir il zaman fasiləsi olmuşdur. Bu bir ildə müxtəlif işlər görülmüşdür. Mən bu işlərin bəzisindən xəbərdaram. Amma (bir daha) təkid etmək istəyirəm ki, bu toplantılar böyük işlərə giriş olmalıdır. Biz, "Nəhc əl-bəlağə" ilə əlaqəsi olmayan bir

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)
[2] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[3] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)

çox vaxt keçirmişik. Bu gün yaranan şəraitdən istifadə edib həmin çatışmazlıqları aradan qaldırmalıyıq.[1]

*   *   *

Mənim üçün çox ürəkaçan olardı ki, vaxt tapıb sizlərdən biri kimi bu konqresin iclaslarında fəal iştirak edim. "Nəhc əl-bəlağə"nin fikir ümidimizin qiblələrindən biri olduğu, vaxtımızın çoxu onu mütaliə ilə keçdiyi, tədris, fikir, mütaliə sahələrimizdə ümdə yer tutduğu keçmiş illər kimi bu gün də bu şərəfli, elmi, dəyərli toplantıda bir tədqiqatçı olaraq bu okeanın dərinliklərində axtarış aparmağı, hər gün iclaslarda iştirak etməyi çox istərdim.[2]

*   *   *

"Nəhc əl-bəlağə" tədricən həyat səhnəsinə gəldi və xalqın əlinə düşdü. Xalq "Nəhc əl-bəlağə"nin varlığından xəbərsiz idi. "Nəhc əl-bəlağə"dən eşitdikləri yalnız dünyanı pisləyən, əxlaqı məsələlərə toxunan cümlələr idi. Başqa heç bir şey bilmirdilər. Ondan sonra "Nəhc əl-bəlağə" bir az əldən-ələ keçdi. Ona şərhlər, izahlar yazıldı. Bəziləri ondan başa düşdüklərini şərh olaraq qələmə aldılar. Bütün bu zəhmətlər hamısı təqdirəlayiqdir. Amma "Nəhc əl-bəlağə"nin əzəməti qarşısında, görülməsi lazım olan işlər qarşısında bir şey deyil.[3]

*   *   *

Cəmiyyətdə meydana gələn, cəmiyyəti tənəzzülə uğradan, legitim dövlət və cəmiyyətin süqutuna gətirib çıxaran amillər Quran və hədislərdə öz əksini tapmışdır. Əgər Quranı, "Nəhc əl-bəlağə"ni və hədisləri mütaliə etsək, görəcəyik ki, Allah-

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)
[3] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

taala və məsumlarımız bu mövzunu olduqca mühüm hesab etmiş, bu haqda camaata lazımi tövsiyələr etmiş və çıxış yollarını göstərmişlər.[1]

* * *

Həzrət (ə) ümumi kütləni nəzərə almış, fərqli təbəqələri bir kənara qoymuş və İslam cəmiyyətində təbəqələşmənin olmamasını nəzərdə tutmuşdur. İmam (ə) Malik Əştərə ünvanladığı məlum əzəmətli, bənzərsiz göstərişində bu haqda buyurur: "Sənin üçün işlərin ən sevimlisi haqda orta yolu tutmaq, onu bərabərlik baxımından ümumiləşdirmək və rəiyyətin şad olmasına daha çox səbəb olan ədalətlilik olmalıdır."[2]

* * *

Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də tövhid, nübuvvət, imamət, qiyamət, məad, ilahi qüdrət və etiqadi məsələlər haqqında geniş bəhslər etmişdir. Əgər elm adamları yalnız düzgün tərcüməsinə və qısa şərhinə vaxt ayırsalar, dinləyici və oxucuların zehin və könlündə (İslam ideologiyasının bir çox həqiqətləri) yer alacaq. İmam Əli (ə) bu xütbələrdə beyinləri formalaşdırmaq, yönləndirmək, hidayət etmək məqsədi izləyib.[3]

* * *

O dövrdə İslam cəmiyyətində yaşayan xalqın düşüncə və mədəni səviyyəsi o qədər yüksək idi ki, Əli ibn Əbu Talib (ə) bu dərin mənalı sözləri minbərdə deyərkən hamı, uşaq da,

---

[1] Tehranda Cümə namazı xütbələri (11. 6. 1367; "İslam Respublikası" qəzeti, 12. 9. 1367)

[2] "Cümə məktəbində", c. 6, səh. 389, Tehranda cümə namazı xütbələri (10. 4. 1362)

[3] "Ələvi hökumət haqqında bir neçə söz", səh. 11

böyük də onu anlayır, başa düşürdü. Deməli, gördüyünüz kimi ələvi cəmiyyətin mədəni səviyyəsi o qədər yüksəkdir ki, "Nəhc əl-bəlağə"ni başa düşür.[1]

*   *   *

Görürsünüz ki, Əmir əl-Mömininin (ə) kəlamları o dönəmin cəhalət və zülmət dünyasında elə parlayırdı ki, hamı – kişi və qadın, uşaq və böyük o sözləri eşitdikdə öz düşüncələri qədərincə başa düşür, dərk edirdilər. Bu gün, əsrlər keçdikdən sonra alimlər, dühalar, mütəfəkkirlər həmin sözləri şərh edirlər. Bunun səbəbi o zaman cəmiyyətdə inqilabın olması idi. Nə vaxt cəmiyyətdə inqilab olarsa, vəziyyət belə olur. Bunlar Əmir əl-Mömininin (ə) çıxışları idi.

Bu xütbələr bu gün sizin "Nəhc əl-bəlağə"də gördüklərinizdən olduqca çoxdur.[2]

*   *   *

[1] "Ələvi hökumət haqqında bir neçə söz", səh. 4
[2] "Ələvi hökumət haqqında bir neçə söz" səh. 10

# Yeddinci fəsil

## "Nəhc əl-bəlağə"nin İslam dünyasında rolu

Müsəlmanların sayının çox olduğu, dünya coğrafiyasının geniş bir hissəsini özlərinə ayırdıqları, zehin və ruhlarını müxtəlif fikirlərin, əqidələrin, ictihadların və cərəyanların hakim olduğu hazırkı şəraitdə İslamın erkən çağlarına aid mətnləri canlandıra bilsək bu ictihadlar üçün ümumi bir meyarın meydana gəlməsinə böyük kömək etmiş olarıq.

"Nəhc əl-bəlağə"yə bu prizmadan yanaşın. "Nəhc əl-bəlağə"yə bu baxışla yanaşdıqda əsla filan səhabənin və yaxud tabeinin hicrətdən əlli, altmış, yüz və ya yüz qırx il sonra yazılmış kitabı ilə müqayisə oluna bilməz.[1]

* * *

"Nəhc əl-bəlağə" bizim ölkəmizə məxsus deyil, o, bütün İslam dünyasına aiddir. İslam dünyası da bu gün bir intibaha, yeni İslam həyatına can atmalıdır.[2]

* * *

"Nəhc əl-bəlağə"ni canlandırmaq yalnız biz şiələrin vəzifəsi deyil. Bu, bütün müsəlmanların vəzifəsidir. Yəni İmam Əlini (ə) qəbul edən, müsəlman olan hər bir insanın borcudur. – Çünki İslamda bu böyük insanı qəbul etməyən kimsə yoxdur. – "Nəhc əl-bəlağə"ni bənzərsiz İslam irsi olaraq yaşatmaq, canlandırmaq lazımdır. Bu canlandırmada məqsəd çapı çoxaltmaq deyil. Lazımınca çox çap olmuşdur. Məqsəd "Nəhc əl-bəlağə" ilə bağlı tədqiqat aparmaq, işləməkdir.

---

[1] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

Quran sahəsində çoxlu iş aparıldığı, çoxlu təfsirlər yazıldığı kimi "Nəhc əl-bəlağə" haqqında da bu işlər görülməlidir. Quran oxunduğu kimi "Nəhc əl-bəlağə" də oxunmalıdır. Çünki Quranın ardı, davamıdır. Müsəlmanlar Quranla üns bağladıqları kimi, Quranı bilməməyi özləri üçün nöqsan hesab etdikləri kimi "Nəhc əl-bəlağə"ni də bilməməyi özləri üçün nöqsan hesab etməlidirlər.[1]

* * *

Bu gün ən aşkar, aydın İslam gerçəkləri İslam ölkələrində bir sıra İslam iddiaçıları tərəfindən qulaq ardına vurulur. Bu gün şüarların bir olduğu, səmtlərin isə bir-birindən fərqləndiyi gündür. Bu gün İmam Əlinin (ə) hakimiyyəti dönəminə bənzər bir şərait mövcuddur. Demək, dövr "Nəhc əl-bəlağə" dövrüdür. Bu gün dünya və cəmiyyət gerçəkliklərinə İmam Əlinin (ə) dəqiq baxışı ilə baxmaq, bir çox həqiqətləri görmək, dərdlərin əlacını tapmaq olar. Belə buna görə də biz həmişəkindən daha çox "Nəhc əl-bəlağə"yə möhtac olduğumuzu düşünürük.[2]

Bu, "Nəhc əl-bəlağə"yə xüsusi önəm verməyin, İmam Əlinin (ə) dili ilə deyilən bu topluya qayıdışın zərurətini göstərən yalnız bir cəhətdir. Onunla bağlı daha çox işlər görmək lazımdır. Bu kitabı istinad olunacaq, başa düşüləcək vəziyyətə gətirmək üçün lazımi müqəddimələri reallaşdırmaq lazımdır. Çünki bu iş həmişəkindən daha lazımlı və daha zəruridir.[3]

* * *

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)
[3] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı: (1363)

Bu günlərdə insanların düşüncəsinə müxtəlif siyasi bölgülər, təsniflərlə bağlı hakim olan mədəniyyətlərin heç biri "Nəhc əl-bəlağə" maarifinə uyğun deyil.[1]

*   *   *

"Nəhc əl-bəlağə" sahəsində iş görənlər – istər İranda, istər digər müsəlman ölkələrində - az deyil. Amma "Nəhc əl-bəlağə" təfəkkürünü bütün İslam dünyası mühitinə yaya biləcək prinsipial, əsaslı iş hələ də görülməmişdir. Doğrudur bu köklü işin ilkin addımları atılmaqda, təməlləri qurulmaqdadır. Həqiqətən, "Nəhc əl-bəlağə" əzəmətli bir xəzinədir. Onun mövcudluğunu belə asanlıqla əldə etmək olmaz. Yəni onu anladıqdan, belə bir varlığı tanıdıqdan sonra əsas işə, yəni istifadə etməyə növbə çatır. Biz hələ "Nəhc əl-bəlağə"nin mövcudluğunu bilmirik, onu tanımırıq.

Əlbəttə, bir çox zəngin İslam qaynaqları bu vəziyyətdədir. Amma "Nəhc əl-bəlağə" daha yüksəkdə durur. Bu, müstəsna bir əsərdir. Onunla misilsiz xəzinə kimi davranmaq lazımdır. Düşündükdə daim olmuş, hazırda da olan bir arzumuzu xatırlayıram. Bu, cəmiyyətimizin sözügedən əziz kitabla üns bağlaması, ülfət tapmasıdır.[2]

*   *   *

---

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)

# Səggizinci fəsil

## *Təhsil nazirliyinin "Nəhc əl-bəlağə"nin canlandırılmasında rolu*

Sizin hər birinizin könüloxşayan səsini eşitmək imkanı mənim üçün olduqca şirin və həzzlidir. Yəni çox istəyərdim ki, siz əziz uşaqlar – gələcəyin ümidləri – pak ürəklərinizlə, parlaq ruhlarınızla buraya gəlib bizim üçün "Nəhc əl-bəlağə"dən bir neçə nurani cümlə oxuyaydınız.

İki cazibə məni sizin düşərgənizə çəkib gətirdi. Birincisi, "Nəhc əl-bəlağə"nin cazibəsi idi. İkincisi isə əslində inqilabın və gələcək dövrlərin gerçək sahibi olan siz gənclərin, yeniyetmələrin, bacı-qardaşların toplantısı idi.[1]

*        *        *

Mən təhsil nazirliyində çalışan əzizlərimizdən xahiş edirəm ki, bu yolu tərk etməsinlər, bu xətti davam etdirsinlər. "Nəhc əl-bəlağə"ni məktəblərə, siniflərə daxil edin. Qoy şagirdlər onun ərəbcə mətnini öyrənsinlər. Ən yaxşı yazıçıları, ən mahir incəsənət utsadlarını işə cəlb edin. Onlardan tələb edin ki, "Nəhc əl-bəlağə"ni uşaqların əzbərləməsi üçün gözəl tərcümə etsinlər. "Nəhc əl-bəlağə" bizim dərsliklərimizdə yer almalıdır. "Nəhc əl-bəlağə"dən çox uzaq qalmışıq. Bu fasiləni aradan qaldırmalıyıq.[2]

*        *        *

İslam Respublikası sistemini möhkəmlətmək üçün lazım olan bütün  anlayışlar "Nəhc əl-bəlağə"də mövcuddur. Siz

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

əzizlər, bizim gözümüzün nuru şagirdlər, istedadlı, zehinli uşaqlar – istər qız, istər oğlan - "Nəhc əl-bəlağə"ni əzbərləmək, tərcüməsini öyrənmək sahəsinə qədəm qoymuş, bu müqəddəs kitabı öyrənməyə başlamısınız. Bilin ki, bu nemət çox bərəkətli və əzəmətli nemətdir. Bu ilahi neməti qənimət hesab edin və (bu sahədə) irəliləyin.[1]

*  *  *

Müəllimlər, pedaqoqlar, Təhsil Nazirliyi, aidiyyətli şöbə, bu işlə məşğul olan qardaşlar bilsinlər ki, bu iş ən dəyərli işlərdəndir. Bu işi əsla kiçik iş hesab etməyin. Cəmiyyətimiz iyirmi ildən sonra başa düşəcək ki, sizin bugünkü toplantınızın, "Nəhc əl-bəlağə"ni bu şəkildə öyrənməyin hansı nəticələri olacaqdır. Bilin ki, bu, bu gün "Nəhc əl-bəlağə" fondunda, Təhsil Nazirliyində çalışan və digər qardaşların əli ilə əkilmiş bərəkətli fidandır. Bunun bəhərini, meyvəsini gələcəkdə dərəcəksiniz. Bu işi tərk etməyin. Əziz uşaqlarımız, əziz qardaşlarmız da bilsinlər ki, "Nəhc əl-bəlağə" çox qiymətli kəlamları ehtiva etmişdir.[2]

*  *  *

Sizin toplandığınız bu düşərgədə qabaqlar bəziləri gəlib Qərb mədəniyyətini, yadellilərin yanlış düşüncə məhsullarını bir-birlərindən öyrənirdilər, uşaqlara fəsad aşılayırdılar. Bu gün isə onun tam əksi olmuşdur. Bu gün burada uşaqlara din, Quran və "Nəhc əl-bəlağə" öyrədilir.[3]

---

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağə” müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)
[2] Böyük Rəhbərin “Nəhc əl-bəlağə” müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)
[3] Böyük Rəhbərin “Nəhc əl-bəlağə” müsabiqəsində iştirak edən şagirdlərlə görüşdə çıxışı (1365)

# Doqquzuncu fəsil

## *Dərdlərin dərmanı "Nəhc əl-bəlağə"dədir*

Bü gün İmam Əlinin (ə) dövrünə bənzər bir şəraitdəyik. Bizi həm dünya sevgisi, həm də təkəbbür, özünəpərəstiş, təəssüb təhdid edir. İctimai fitnə tufanları da bizi çöküşlə, parçalanmaqla hədələyir. Buna görə bizim də o dərmanlara ehtiyacımız var. "Nəhc əl-bəlağə"yə hər zamankından çox ehtiyacımız var. Mən kiminsə bu baxışla "Nəhc əl-bəlağə" ardınca getdiyini görməmişəm. Bilirsiniz ki, çox iş görülmüşdür. Amma bu yeni baxışdır.

İndi "Nəhc əl-bəlağə" güzgüsünə baxın və görün orada hazırkı vəziyyətinizdən nə görürsünüz? Hansı dərdi, hansı təhlükəni görürsünüz? Bizə hansı xəbərdarlıqlar olunub? Bilin ki, bütün bunların dərmanı "Nəhc əl-bəlağə"dədir.

Bu gün tədqiqatçıların "Nəhc əl-bəlağə"ni bu baxımdan izah etmələri zəruridir.[1]

* * *

Nümunə olaraq İmam Əlinin (ə) həll etməyə, aradan qaldırmağa çalışdığı o günün xəstəliklərindən (problemlərindən) bir neçəsini qeyd edirəm. Bu xəstəliklərdən biri dünya sevgisidir. "Nəhc əl-bəlağə"də dünya, dünya sevgisi, dünyaya aldanmaq, dünyanın təhlükələri, pusquları əleyhinə xəbərdarlıqlar olunmuşdur. "Nəhc əl-bəlağə"nin önəmli hissələrindən biri zöhddür.[2]

* * *

Biz, mahir bir həkimdən tam nüsxə alıb cibinə və ya taxçaya qoyan, amma eyni halda o nüsxəni açıb baxmayan,

---

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)

əməl etməyən və beləcə xəstəlikdən daim əziyyət çəkən xəstəyə bənzəyirik. Əsrlər boyu "Nəhc əl-bəlağə" bizim ixtiyarımızda idi. Lakin ondan istifadə etmədik, o maarifdən faydalanmadıq. Fərdi və ictimai xəstəliklərdən qurtulmadıq. Bu, "Nəhc əl-bəlağə" ilə tanış olan hər bir kəsin qəlbində yaranan böyük təəssüf hissidir.[1]

*       *       *

İmam Əlinin (ə) "Nəhc əl-bəlağə"də "Qasiə" adlanan xütbəsi var. Olduqca mühüm, məzmunlu, maraqlı xütbədir. Bu xütbənin ümdə mövzularından biri təkəbbürün pislənməsidir.

Burada peyğəmbərlər (ə) haqqında bir neçə cümlə vardır ki, bir hissəsini sizin üçün oxuyuram.

Peyğəmbərlər (ə) haqqında buyurur: “Allah-taala peyğəmbərlərin nəzərində təkəbbürü pis etdi, təvazönü onlara layiq gördü. Razı oldu ki, onlar təvazökar olsunlar. Peyğəmbərlər (ə) o qədər təvazökar idilər ki, Allah hüzurunda üzlərini yerə sürtür, alınlarını torpağa bulaşdırırdılar. Möminlərə qarşı təvazökarcasına mehriban idilər”[2]. Peyğəmbərlər (ə) möminlərlə belə idilər. Buna görə də həmişə onların ətrafına toplanırdılar[3].

*       *       *

Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də buyurur: Peyğəmbərlər (ə) bütün xalqla, cəmiyyətin əksəriyyətini təşkil edən geniş xalq kütləlləri ilə ünsiyyətdə idilər. Bizim

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağə" müsabiqəsində iştirak edən şagirdlərlə görüşündə çıxışı (1365)

[2] "Nəhc əl-bəlağə", xütbə, 192. Bu xütbədə Adəmə səcdə etməyib təkəbbür nümayiş etdirən "İblis" çox pislənmişdir. Orada deyilir ki, "İblis" təəssübü, təşəxxüsü izhar edən ilk varlıq olmuşdur. İmam (ə) burada insanları Şeytan ənənəsini davam etdirməkdən, onun yolunu getməkdən, təkəbbür və təəssübə yoluxmaqdan çəkindirir.

[3] "Cümə məktəbində", c. 7, səh. 198, Tehranda cümə namazı xütbələri (6. 8. 62)

peyğəmbərimizin işi onlarla idi. Müasir dövrdə ümmətin imamının (İmam Xomeyninin) də işi onlarladır. Dövlət, vəzifəli şəxslər və xalq arasındakı bu əlaqə yaşamalıdır. Bu münasibət zəifləməməlidir. Bizim inqilabımızın şah damarı bu münasibətdir.[1]

* * *

"Nəhc əl-bəlağə"də dəfələrlə təkrar olunan mövzu "təkəbbür" mövzusüdur. Yəni "Qasiə" xütbəsinin ümdə mövzusudur. Əlbəttə ki, bu təkcə "Qasiə" xütbəsinə məxsus deyil, "Nəhc əl-bəlağə"də bir çox yerlərdə var. Təkəbbür məsələsi, yəni özünü başqalarından yüksəkdə görmək İslamı, İslam siyasi quruluşunu zəiflədən, xilafəti padşahlığa çevirən, Peyğəmbərin (s) zəhmətlərinin nəticəsini müəyyən zaman kəsiyində tamamilə aradan aparan bəladır. Məhz buna görə də İmam Əli (ə) "Nəhc əl-bəlağə"də bu məsələyə çox önəm vermişdir.[2]

* * *

"Nəhc əl-bəlağə"nin zöhdlə, zöhdə rəğbətləndirməklə dolu olması nəyi göstərir? (Təbii ki,) xəstəliyi göstərir. İmam Əlinin (ə) dünya haqqında odlu, həyacanlı, gözəl, bəlağətli danışan bu nüsxəsi göstərir ki, camaat çox pis şəkildə dünya tələsinə düşübmüşlər. Peyğəmbərin (s) dünyasını dəyişdiyi vaxtdan iyirmi üç il sonra camaat çox pis əsir olmuşdu. Bu düyün açan əl çalışır ki, bu kəməndi onların əl-ayağından açsın.[3]

* * *

---

[1] "Cümə məktəbində", c. 7, səh. 198, Tehranda cümə namazı xütbələri (14. 3. 61)
[2] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[3] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)

Bu gün "Nəhc əl-bəlağə" bizim üçün fərqli cəhətlərdən əhəmiyyətlidir. Təkid edirəm ki, bu kitab bənzərsiz, sonsuz xəzinədir. Bu gün də İslam cəmiyyəti, müsəlman xalqlar ona həmişəkindən daha ehtiyaclıdırlar.[1]

* * *

Bu quruluşun sütunlarını çiyninə alan biz İran xalqı, bu gün "Nəhc əl-bəlağə"yə müraciət etsək, onda maraqlı şeylər görəcəyik. Bu dövrdə bizi təhdid edən xəstəliklər var. Onların müalicəsi bizim üçün dəyərli və həyatidir. Bu fərmanları, müalicə üsullarını axtarmalıyıq. Mən demək istəmirəm ki, İslamın erkən çağlarında baş verən hadisələr indi də bir-bir baş verir, xeyr! Amma istiqamətlər eynidir.[2]

* * *

Həzrət Əlinin (ə) bir sıra çıxışları vardır ki, bu çıxışlarda ideologiya, döyüş taktikası, hakimiyyət təcrübəsi, üsuli-idarə, əxlaq, zöhd və təqvadan söhbət açılır. Siz bu gün başa düşürsünüz ki, bizim "Nəhc əl-bəlağə"yə nə qədər ehtiyacımız var.[3]

* * *

---

[1] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin beşinci "Nəhc əl-bəlağə" konqresində çıxışı (1364)
[3] "Ələvi hökumət haqqında bir neçə söz", səh. 13

# Onuncu fəsil

## "Nəhc əl-bəlağə"də hökumət

Hökumət məsələsi də "Nəhc əl-bəlağə"də onlarla digər mühüm həyat məsələləri kimi müəllif və tədqiqatçıların üslubundan fərqli şəkildə verilmişdir. Təbii ki, Əli (ə) ("Nəhc əl-bəlağə"də) hökumət haqqında ayrıca fəsil açıb müqəddimələr verməklə nəticə əldə etməmişdir. Onun bu sahədə də metodu digər sahələrdəki kimi filosofsayağıdır. Yəni müqəddimələrdən keçib və yekun üzərində fikir yürütmək şəklindədir. İmam Əlinin (ə) hökumət məsələsinə baxışı vəhy mənbəyi ilə yaxından bağlı olan böyük bir filosofun yanaşmasıdır.[1]

* * *

"Nəhc əl-bəlağə"də hökumət məsələsi yalnız uzaqdan-uzağa söhbət şəklində verilmir. Həzrət Əli (ə) hökumət məsələsi ilə bilavasitə məşğul olmuşdur. Bu şərif kitabda da bir hakim kimi, İslam ölkəsini idarə edən (bütün problemlər, müsibətlərlə, başağrıları ilə yaxından tanış olan) bir şəxs olaraq bu məsələnin müxtəlif məsələlərini nəzərdən keçirmiş, haqqında söhbət açmışdır. Bu məqama - Əmir əl-Möminin Əlinin (ə) vəziyyətinə uyğun bir şəraitdə yaşadığımıza diqqət yetirmək olduqca ibrətvericidir.[2]

* * *

---

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

## 1. Hökumətin mənası

Öncə öyrənmək lazımdır ki, İmam Əliyə (ə) görə hökumət antik və müasir dünyamızın leksik fonduna daxil olduğu kimimi başa düşülür? Yəni hökumət, hakimiyyət, hökmranlıq, hökm yürütmək, yaxud hakim və ya hakimlərin həyatda xüsusi imtiyaz sahibi olmalarıdırmı? Yoxsa "Nəhc əl-bəlağə" maarifində hökumətin tamam başqa mənası var? Bu, "Nəhc əl-bəlağə"də məlum bir neçə sözdən, termindən başa düşülür. "İmam", "vəli", "vəliyyi-əmr" sözlərinin hakim, dövlət başçısı haqqında, "rəiyyət" sözünün isə xalq barəsində işlənməsi buna sübutdur.[1]

* * *

Quranda, eləcə də hədislərdə - xüsusilə "Nəhc əl-bəlağə"də - hakimin iki siması təsvir olunmuşdur. Biri müsbət, digəri isə mənfi. Müsbət sima bələdçi imam, haqqa doğru istiqamətləndirən imam kimi göstərilir. İkinci sima alov və azğınlıq öndəri kimi dəyərləndirilir. Bələdçi imam peyğəmbərlər, övliyalar, haqq İslam hökmdarları, Allaha bəndə olan, ilahi meyarlara görə rəhbərliyə layiq olanlardır. Batil öndərlər, alov bələdçiləri isə tağutlardır.[2]

* * *

## 2. Hökumətin zərurəti

"Nəhc əl-bəlağə"də hökumətin zərurəti məsələsindən zorakılığa meyllilik qarşılığında söhbət açılmışdır. Bu növ meyllər cəmiyyətdə daim olmuşdur. Bu gün də var. Gələcəkdə

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

[2] "Cümə məktəbində", c. 7, səh. 194, Tehranda cümə namazı xütbələri (6. 8. 1362)

də insan əxlaqı kamil olmayınca, düzgün olmayınca bu növ meyillər mövcud olacaqdır.[1]

*   *   *

**3. Hökumətin mənşəyi**

"Nəhc əl-bəlağə"yə görə hökumətin mənşəyi nədir? Bu mənşə təbii güc və iqtidardır (təbii güc və ya qazanılmış güc)? Hakimiyyətin mənşəyi, bir insanın və ya kollektivin hakimiyyətinə legitimlik bəxş edən amil ilahi iradədir, yoxsa xalqın iradəsi?[2]

*   *   *

Müasir dünyada demokratiya, yəni xalqın əksəriyyətinin iradəsi, istəyi hakimiyyətin mənşəyi, meyarı hesab olunur.

Amma hamı bilir ki, xalqın iradəsini zorluların, iqtidar sevdasında olanların istədiyi səmtə yönəltmək üçün hansı namərd vasitələrə əl atılır. Bir cümlədə demək olar ki, geniş yayılmış bəşəri mədəniyyətlərdə başlanğıcdan bugünədək, bu gündən "Nəhc əl-bəlağə" maarifinin insanların həyatına hakim olacağı anadək hakimiyyətin mənşəyi iqtidar, güc olmuş və olacaqdır.

Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də hakimiyyətin mənşəyini bu anlayışlar hesab etmir. Daha mühümü isə budur ki, onun özü də əməldə bunu sübut etmişdir. İmam Əliyə (ə) görə hakimiyyətin əsl mənşəyi bir sıra mənəvi dəyərlərdir. Xalqa hökmranlıq etmək, xalqın idarəçiliyini üzərinə almaq səlahiyyəti yalnız müəyyən özəllikləri olan insanlara məxsusdur.[3]

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

[3] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

**4. Hakimiyyət haqdır, yoxsa vəzifə?**

Hakimiyyətdə olmaq haqdır, yoxsa vəzifə? Hökmranlıq hakimin haqqıdır, yoxsa vəzifəsi? Hakimiyyətdə kim ola bilər və ya olmalıdır? "Nəhc əl-bəlağə"yə görə hakimiyyət həm haqdır, həm də vəzifə. Hakimiyyətdə olmaq səlahiyyəti olan, meyarlara cavab verən şəxs hakimiyyəti qəbul etdikdə hökmranlıq etmək artıq onun vəzifəsidir. Bu yükü çiynindən ata bilməz.[1]

* * *

İmam Əli (ə) qısa bir açıqlamada hakimiyyəti həm haqq hesab edir, həm də vəzifə. Belə deyil ki, kim hansı yolla olur-olsun, bu və ya digər şəkildə xalqı cəlb etsin, hakimiyyəti ələ alsın. Hakimiyyət haqdırsa, bu haqq müəyyən insanlara aiddir. Bu, heç də o demək deyil ki, bir zümrə digərlərindən fərqlidir, üstündür. Çünki İslam cəmiyyətində hamının o imkanı qazanması üçün şərait var. Əlbəttə, Peyğəmbərin (s) dövründən sonra müstəsna bir vəziyyət hakim idi. Amma "Nəhc əl-bəlağə" öz açıqlamasını ümumi şəkildə verir və dəfələrlə bu hüquqa işarə vurur.

İmam (ə) hökuməti haqq hesab edir. Bu, "Nəhc əl-bəlağə"də aydın görünən bir məsələdir.[2]

* * *

**5. Hakimiyyət məqsəddir, yoxsa vasitə?**

Hakimiyyət bir fərd və ya kollektiv üçün məqsəddir, yoxsa vəzifə? Əgər vasitədirsə, hansı məqsəd üçündür? Başçı

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

hakimiyyət vasitəsi ilə cəmiyyəti hansı məqsədə doğru aparmaq istəyir?[1]

* * *

**6. Hökmran və rəiyyət**

Hökmran və rəiyyət münasibətləri hansı təməl üzərində qurulur, hansı prinsipə əsaslanır? Bu, hakimi xalqın boynuna çıxaran bir tərəfli haqdırmı? Yoxsa qarşılıqlıdır? "Nəhc əl-bəlağə"də ən ümdə, ən mənalı, ən səmərəli hökumət məsələlərindən biri bu məsələdir.[2]

* * *

**7. Xalq və hökumət**

Görməliyik ki, "Nəhc əl-bəlağə"yə görə xalqın hökumət qarşısında hansı vəzifəsi var? Xalq təyinedicidirmi? Başlayıcıdırmı? Tam ixtiyar sahibidirmi? Heç bir hüququ, ixtiyarı yoxdurmu? Bunlar "Nəhc əl-bəlağə"də söhbət açılan ən incə məsələlərdir. Bu gün müxtəlif sahələrdə kütlənin zehniyyətinə hakim olan, müxtəlif siyasi bölgülərlə bağlı düşüncələr heç biri "Nəhc əl-bəlağə" maarifi ilə səsləşmir.[3]

* * *

**8. Xalqla davranış qaydası**

Dövlətin məmurları xalqla necə davranmalıdırlar? Xalq onlara borcluymuş kimimi? Xalqa borclu kimimi? Hakim dairənin xalqla davranışı necə olmalıdır?[4]

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)
[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)
[3] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)
[4] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

**9. Hakimin özü ilə davranışı**

Hakimin cəmiyyətdə davranışı üçün məhdudiyyət vardırmı? Onun xalqla yaxşı davranması ilə kifayətlənmək olarmı? Yoxsa hakimin xalqla davranışı arxasında başqa bir şey varmı ki, bu onun özü ilə davranışıdır? Hakimin şəxsi həyatı necə keçməlidir və "Nəhc əl-bəlağə" bu haqda nə deyir?[1]

* * *

**10. Hakimin şərtləri**

"Nəhc əl-bəlağə"də İslam cəmiyyətinin hakimindən əsla padşah, sultan olaraq söhbət açılmamışdır. "Nəhc əl-bəlağə"də söhbət açılan ibarələrdən biri öndər və rəhbər mənasını ifadə edən "imam" anlayışıdır. Rəhbər anlayışı bələdçi anlayışı ilə fərqlidir. Rəhbər cəmiyyəti, ümməti öz ardınca çəkdikdə özü o hərəkətin öndə gedəni, gözətçisi olan şəxsdir. Xalqın hərəkət etdiyi xətdə öncüllük, qabaqcıllıq anlayışı "imam" ifadəsində vardır.[2]

* * *

Fikrimcə, "vilayət" anlayışı ilə bağlı əlaqə növləri ümumilikdə bu bağlılığın nümunələridir. Ümmətin valisi, rəiyyətin valisi xalqın (dövlətçilik) işlərini üzərinə alan, onlara bağlı olan şəxsdir. Bu məna "Nəhc əl-bəlağə" və Əmir əl-Mömininə (ə) görə hökumət və hakimiyyətin tamam başqa bir cəhətini üzə çıxarır.[3]

* * *

---

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)
[2] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)
[3] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

Cəmiyyətin müdiriyyətini təşkil edən hissə də başqa hissələr kimidir. O da bu toplumu təşkil edən digər hissələr, ünsürlər kimidir. Bu işi üzərinə alan "vəliyyi-əmr"dir. O, heç bir imtiyaz ummur. Onun heç bir tələbi yoxdur. Həyat səviyyəsi baxımından və ya maddi imkanlar baxımından ona heç bir imtiyaz verilməyib. Əgər öz vəzifəsini layiqincə həyata keçirsə, çox yox, bu vəzifəni həyata keçirdiyi qədərincə mənəvi heysiyyət qazanır. Bu, "Nəhc əl-bəlağə"də hakimiyyət anlayışının gerçək üzüdür. Bu mənada "Nəhc əl-bəlağə"dəki hakimiyyət anlayışında hökmranlıqdan heç bir əsər-əlamət, imtiyaz qazanmaq üçün heç bir bəhanə yoxdur. Digər tərəfdən "Nəhc əl-bəlağə"nin təbirincə xalq rəiyyətdir. Rəiyyət o deməkdir ki, onları qorumaq, müdafiə etmək yükü vəliyyi-əmrin çiynindədir.[1]

*   *   *

"Nəhc əl-bəlağə"də hökumət anlayışını araşdırdıqda görürük ki, bir tərəfdən hakimiyyətdə olan, iş başında olan, xalqı idarə edən, onun idarəçilik işlərini üzərinə alan, üzərinə mühüm vəzifə almış biri kimi təqdim olunur. O, ən çox yük, ən ağır məsuliyyət götürən şəxsdir. Amma digər tərəfdən, xalqın bütün dəyərləri, idealları, şəxsiyyətlərini təşkil edən bütün ünsürlərlə nəzərə alınmalıdırlar. Bu, hökmranlıq yox, zorakılıq yox, artıq imtiyaz toplama yox, hökumət anlayışıdır.[2]

*   *   *

Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"nin mühüm hissələrində hökumətin nüfuz dairəsinə toxunur. "Nəhc əl-

---

[1] Böyük Rəhbərin “Nəhc əl-bəlağənin minilliyi” konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres; 1360)

bəlağə"də onlarla cümlə, ibarə var ki, İmam Əlinin (ə) hakimiyyət anlayışı haqqında fikrini göz önündə sərgiləyir.

Misal üçün, Malik Əştərə məktubunun əvvəlində oxuyuruq: "Bu, Allahın bəndəsi Əmir əl-Möminin Əlinin Malik ibn Haris Əştəri Misirə, oranın vergilərini yığmaq, düşmənləri ilə vuruşmaq, əhalisinin vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olmaq və şəhərini abadlaşdırmaq üçün vali təyin edən zaman onunla razılaşmada əmrlərdəndir".[1]

Bu, hökumətin mənasıdır. Əgər Malik Əştər Misirin valisi, hakimi olaraq təyin olunursa bu, onun özü üçün deyil. Əksinə, bu onun bir sıra işləri həyata keçirməsi üçündür. O, dövlətin maliyyə məsələlərini idarə etmək üçün onlardan vergi almalı, düşmənlərlə mübarizə aparmalı, xalqı düşmənlərdən qorumalı, onları islahata yaxınlaşdırmalı (islahat geniş maddi və mənəvi sahələrdə aparılmalıdır ki, "Nəhc əl-bəlağə"də İmam Əlinin (ə) bu haqdakı görüşləri yer almışdır), şəhərləri, hakimiyyəti altında olan bölgələri abad etməlidir. Yəni qısaca, insanları formalaşdırmalı, ölkəni abad etməli, əxlaq və mənəvi dəyərləri yüksəltməli, xalqın vəzifələrini, hökumət qarşısında üzərlərinə düşən öhdəlikləri həyata keçirməkdə yardımçı olmalıdır.[2]

* * *

---

[1] "Nəhc əl-bəlağə", məktub 53

[2] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360). Maraqlananlar "Nəhc əl-bəlağə"də hökumət haqqında ətraflı məlumat üçün Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışının (ordibeheşt, 1360) "Nəhc əl-bəlağə" fondu nəşriyyatı tərəfindən "Nəhc əl-bəlağə"yə qayıdış" adı ilə çap olunmuş tam mətninə müraciət edə bilərlər.

# On birinci fəsil

## *"Nəhc əl-bəlağə"də vəhdət*

İmam Əli (ə) öz xütbələrində keçmiş millətlərin xoş günlərinin, şərəf və izzətlərinin ayrılıqdan, dağınıqlıqdan uzaq olmalarında, vəhdətdən ayrılmaz olmalarında görür və xalqı birliyə, vəhdətə, ülfətə rəğbətləndirir.

Əmir əl-Möminin (ə) öz xütbələrində insanların bir-birinə kinini, fərdlərin bir-birinə qarşı bədxahlığını, xalqın bir-birinə arxa çevirməsini onların süqutunun, tənəzzülünün səbəbi kimi göstərir.[1]

* * *

Həzrət Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də vəhdətin, birliyin əsas tənzimləyicisini cəmiyyətin rəhbərliyi hesab edir. Yəni cəmiyyətin imamı, rəhbəri vəhdətin mərkəzi, tənzimləyici oxudur. Həzrət Əli (ə) öz dövrünün müsəlmanlarına müraciətlə rəhbərin, imamın vəhdət mehvəri olduğunu təkid edir. Məhz bu mərkəz qüvvə səbəbilə Peyğəmbər (s) dönəmində müsəlmanlar izzətə, şərəfə nail olmuşdurlar. Halbuki İmam Əlinin (ə) hakimiyyəti dönəmində xalq bu vəhdət oxunu nəzərdən qaçırdığından təfriqəyə məruz qaldı və İslam dünyası o zamandan tənəzzülə sürükləndi. Belə ki, uzun illər qamətini düzəldə bilmədi.[2]

* * *

Bu gün qarşılıqlı anlaşma və birlik yaratmaq səyləri bir vəzifədir. Bu həmişə vəzifə olmuşdur. "Nəhc əl-bəlağə"də elmi və etiqadi bəhs bu həqiqəti bizə göstərir. Biz gözlərimizi

---

[1] Böyük Rəhbərin Tehranda Cümə namazı xütbələri (14. 1. 1368)
[2] Böyük Rəhbərin Tehranda Cümə namazı xütbələri (14. 1. 1368)

yumub, özümüzü "Nəhc əl-bəlağə"nin aydın şəkildə dediklərini görməməzliyə vura bilmərik.[1]

*   *   *

Sistemin möhkəmlənməsi, ictimai hərəkət üçün vəhdət, birlik zəruri, qaçılmaz, təfriqə isə ziyanlıdır.

Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də buyurur: “Keçmiş millətlərdə nə zaman xalq arasında yekdillik, birlik olmuşsa, izzət və şərəf, iqtidar, güc də o millətə aid olmuşdur. Nə zaman könüllər, yollar bir-birindən ayrılmışsa, vəhdət kölgəsi camaatın üzərindən çəkilmişsə, insanların həyatı sahmanını itirmiş, onların izzəti zillətə çevrilmişdir, inkişafları, irəliləyişləri tənəzzüllə, geriləməklə əvəz olunmuşdur.[2]

*   *   *

---

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağənin minilliyi" konqresində çıxışı (Birinci konqres, 1360)

[2] Tehranda Cümə namazı xütbələri (25. 1. 1368; "İslam Respublikası" qəzeti, 26. 1. 1368.

# On ikinci fəsil

## *"Nəhc əl-bəlağə"də təqva*

"Nəhc əl-bəlağə"də yer alan ən mühüm mövzulardan biri təqvadır. Yəni mömin insan öz əməlinə görə məsuliyyət hiss etməli, çəkinəcəyi olmalıdır. O diqqətli olmalı, öz əməllərinə, davranışına nəzarət etməlidir. Qəflət və ehtiras onu imanın tələb etdiyi yoldan yayındırmamalıdır, yanlış istiqamətə sürükləməməlidir. Yol ilə addımladığını düşündüyü bir halda bir də gözünü açıb yolu azdığını görməməlidir.[1]

* * *

Əgər cəmiyyətdə təqva olmazsa, tədricən xalqın təqva ipi incələrsə, üzülərsə, İslami həyatın davamı mümkün olmaz. Əgər biz özümüzdə istiğfar (əfv diləmək) əhval-ruhiyyəsini diriltsək, işin böyük bir hissəsi görülmüş olacaq. "Nəhc əl-bəlağə"də bağışlanmaq, əfv diləmək haqqında İmam Əlinin (ə) dilindən deyilir: "Allah-taala yer üzündə insanların əzabdan qorunması, amanda qalması üçün iki yol qoymuşdur. Bu iki vasitədən biri insanların əlindən çıxdı. Elə isə ikincisindən muğayat olun. Onu əldən verməyin, ona tapının. Allahın əzabının qarşısını alan və artıq xalqın əlindən çıxan təhlükəsizlik səbəbi Peyğəmbərin (s) müqəddəs vücudu idi. Digəri isə "istiğfar"dır.[2]

* * *

Təqvanı təhrif olunmuş pəhrizkarlıq mənasında yox, sözün əsl mənasında diqqətə alın. Mən gənclərə tövsiyə edirəm ki,

---

[1] Tehranda Cümə namazı xütbələri (20. 3. 1367; “İslam Respublikası” qəzeti, 21. 3. 1367).
[2] Tehranda Cümə namazı xütbələri (23. 2. 1367; "İslam Respublikası" qəzeti, 24. 2. 1367)

mərhum Şəhid Mütəhhərinin çıxışlarından hazırlanmış "Təqva" əsərini, eləcə də, "Nəhc əl-bəlağəyə bir baxış" kitabını oxusunlar. İmam Əlinin (ə) sözlərində təqvanın mənasını dərk edin.[1] Təqva sözün əsl mənasında günahdan uzaq qalmaqdır. *“Lakin təqva libası daha yaxşıdır (xeyirlidir)”.*[2] O təqva ki, insan üçün geyim və örtükdür. İnsanı maddi və mənəvi zədələrə, xəstəliklərə qarşı vaksinləyir.

Zöhd sözün əsl mənasında dünyanın, bu həyatın maddi cilvələrinə qarşı meyilsiz, rəğbətsiz olmaqdır. İmam Əlinin (ə) kəlamında təqva, helm, dostluq, qardaşlıq, sevgi və digər bir sıra etik məsələlər mövcuddur. İmam (ə) yalnız insanları öyrətmir, yəni yalnız beyinlərini formalaşdırmır, həm də onları ruhi, mənəvi baxımdan saflaşdırmaq, formalaşdırmaq istəyir. Deməк, öncə təlim, sonra isə tərbiyədir.[3]

*   *   *

---

[1] "Nəhc əl-bəlağəyə bir baxış", səh. 200, "Nəhc əl-bəlağə"də təqva" fəsli
[2] “Əraf”, 26
[3] "Əlevi hökumət haqqında bir neçə söz", səh. 11

# On üçüncü fəsil

## *"Nəhc əl-bəlağə"də tarix*

Bəşər tarixi yeni nəsil üçün böyük dərsdir. Əmir əl-Möminin (ə) "Nəhc əl-bəlağə"də tarixin dərslərindən tövsiyələr verərək buyurur: "Ey Allahın bəndələri, qarşınızda Allahın əzabının, Onun sonsuz gücünün, dağıdıcı zərbələrinin nümunələri, dövranın hadisələrinin ibrətli hekayətləri var".[1]

*   *   *

Digər bir həqiqət budur ki, İslam tarixi boyu – təəssüf ki, – bir tərəfdən cəhalət, digər tərəfdən qərəzlilik, düşmənçilik səbəbilə meydana gələn yanlışlıqlar, yoldan azmalar ixtiyarımızda olan İslam maarifində çaşqınlıqlar yaratmışdır.

İslamın tarixi keçmişi boyunca cəhalət, nadanlıq, dardüşüncəlik, eqoistliklər olmuşdur və bu, bir sıra İslam həqiqətlərinin, İslam maarifi tanınmalı olduğu kimi tanınmasını əngəlləmişdir. Bundan başqa, İslamın meydana gəldiyi erkən əsrlərdən başlayaraq güc sahibləri, İslam cəmimiyyətini öz ziyanlarına görənlər tərəfindən qərəzli mövqelər, xəyanətlər, bilərəkdən İslamdan yayınmalar müşahidə olunmuşdur. Biz, tarix böyu söykənilməsi mümkün olan xalis İslam düşüncələrinə, (sağlam) fikir sisteminə ehtiyaclı olmuşuq. "Nəhc əl-bəlağə" bu yaxın yolu bizim qarşımıza qoyur. "Nəhc əl-bəlağə" bizi İslamın erkən çağları ilə yaranmış uzun fasiləmizə rəğmən İslam maarifinə ən yaxın, ən təhlükəsiz qaynağa yetirir.[2]

---

[1] Tehranda cümə namazı xütbələri (5. 2. 1359; "İslam Respublikası" qəzeti, 6. 2. 1359)

[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

# On dördüncü fəsil

## *"Nəhc əl-bəlağə" ilə bağlı görülməli işlər*

"Nəhc əl-bəlağə"nin tərtib olunduğundan keçən min il ərzində bir çox lazımi işlər görülmüşdür. Güman ki, bu kitabların, dəyərli əsərlərin əlyazması kitabxanalarda mövcuddur. Onları axtarıb tapmaq lazımdır. Bu ehtimal da var ki, onların bəzisi zaman keçdikcə düşmən münasibətə məruz qalmış, aradan getmişlər. Hər halda bu işlər həyata keçirilməlidir.

*    *    *

**1. "Nəhc əl-bəlağə"nin məzmununun fəsillər üzrə tərtib olunması**

Bu konqresin görə biləcəyi işlərdən biri "Nəhc əl-bəlağə" ilə bağlı aparıla biləcək ümdə tədqiqatların indeksini hazırlayıb elm adamlarının ixtiyarına verməkdir. Bəlkə onlarla lazımi iş saymaq olar ki, bu gün "Nəhc əl-bəlağə" bu işlərə ehtiyaclıdır və fərdi, yaxud da kollektiv qaydada həyata keçirilməlidir. Bunları tərtib edib xalqın ixtiyarına vermək lazımdır ki, alimlər, müəlliflər, fikir adamları, mütəxəssislər, "Nəhc əl-bəlağə" ilə ünsiyyətdə olanlar hansı işlərin birincilik təşkil etdiyini, hansı işlərin daha önəmli olduğunu bilsinlər.[1]

*    *    *

"Nəhc əl-bəlağə"nin tam şərh və təfsiri yoxdur. Fəsillər üzrə tərtib olunmamışdır. Burada yalnız bir kitabın, görkəmli alim Müstəfəvinin[2] "Kaşifi-əlfazi-Nəhc əl-bəlağə" adı altında

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

[2] Böyük ustad və görkəmli alim Höccətül-islam Doktor Seyid Cavad Müstəfəvi şəmsi tarixi ilə 1301-ci ildə ruhani ailəsində dünyaya gəlmiş, İslam maarifi sahəsində bir ömür cidd-cəhddən sonra 67 yaşında dünyasını

tərtib etdiyi kitabın adını çəkmək olar. "Nəhc əl-bəlağə" üçün bundan başqa bu həddə, bu səviyyədə iş görülməmişdir. Bu gün biz "Nəhc əl-bəlağə"yə qayıtmalıyıq. Alimlər öz işlərini görməlidirlər. Amma gənclər də ustadları, elm, düşüncə qabaqcıllarını, ədibləri gözləməli deyillər. "Nəhc əl-bəlağə"ni müxtəlif cəhətlərdən nəzərdən keçirməliyik. Bu iş üçün kollektiv yaratmalı, iclaslar keçirməliyik.[1]

* * *

## 2. "Nəhc əl-bəlağə"nin mövzular üzrə fəsillərə ayrılması

"Nəhc əl-bəlağə" ilə bağlı görülməsi zəruri olan işlərdən biri də onun mövzular üzrə fəsillərə ayrılmasıdır. Əlbəttə ki, bu iş görülüb. Dövrümüzün bəzi tədqiqatçıları, böyük və görkəmli alimləri "Nəhc əl-bəlağə" üzərində bu işi aparmışlar. Çoxsaylı cildlərdə çap olunmuşdur. Bu, öz yerində dəyərlidir. Lakin tərtib olunan ümumi mövzuların hər birini (zənnimcə, otuz ümumi mövzuya yer verilmişdir) təkmilləşdirmək məqsədi ilə bəlkə onları xüsusi mövzulara ayırmaq olar. Bu işin yeri Quran sahəsində də boşdur, hələ görülməmişdir. Quran üçün "Təfsil əl-ayat" yazılmalıdır. Bu, bizim bu günədək əldə edə bilmədiyimiz, lakin Quranda mövcud olan mövzuları əhatə etməlidir.

"Nəhc əl-bəlağə" ilə də bağlı mövzular indeksi hazırlanması çox zəruridir. "Nəhc əl-bəlağə" dərin və sonu görünməyən bir okeandır. Bu kitabı layiq olduğu kimi gəzintiyə çıxmaq, dərinliklərinə baş vurmaq hamıya müyəssər olmamışdır. Bir halda ki, bu kitabın böyük əksəriyyəti xalqa lazımdır. Araşdıranlar, maraqlananlar üçün imkan yaradılmalıdır ki, istədikləri məsələni orada asanlıqla tapa bilsinlər.[2]

---

dəyişmiş və İmam Əli ibn Musa Rzanın (ə) ziyarət kompleksində torpağa tapşırılmışdır. Onun həyat hekayəti ilə tanış olmaq üçün "Nəhc əl-bəlağə ilə yaşayan müdrik" kitabına müraciət edə bilərsiniz.

[1] Böyük Rəhbərin "Nəhc əl-bəlağə"nin minilliyi konqresində çıxışı (1360)

[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

Nəfsi saflaşdırmaq, insan tərbiyə etmək, formalaşdırmaq "Nəhc əl-bəlağə"nin ən ümumi mövzusu və ən prinsipial fəslidir. Əlbəttə ki, "Nəhc əl-bəlağə"nin mövzular üzrə tərtibi tam olmasa da bu günədək diqqətdə saxlanmışdır. O cümlədən Şəhid Mütəhhəri də, "Nəhc əl-bəlağəyə bir baxış" kitabında belə bir iş görmüşdür. Əlbəttə, o "Nəhc əl-bəlağə"ni fəsillərə bölməmişdir. Yalnız "Nəhc əl-bəlağə"dən bəzi mövzuları seçmiş, özünün də dediyi kimi "Nəhc əl-bəlağə"yə bir baxış keçirmişdir. Seçdiyi mövzulardan söhbət açıb, hər birini izah etmiş, özünün "Nəhc əl-bəlağə" və digər İslam qaynaqlarından başa düşdüklərini bu kitaba istinadən qeyd etmişdir. Buna görə də bir növ fəsillərə ayırmışdır. Amma təbii ki, bu tam iş deyil. Başqaları da bu işi görmüşlər. "Nəhc əl-bəlağə"ni fəsillərə ayırmış, üç hissə - əqaid, əxlaq və praktiki, ictimai həyat haqqında şərhlər vermişlər.[1]

* * *

"Nəhc əl-bəlağə" məfhum və prinsiplərini başa düşməyin yolu budur ki, birincisi, öncə hər bir sözün mənasını tam anlayıb sözlərin mənasında səhv etməyək. İkincisi, cümlələrin mənasını başa düşməliyik. Üçüncüsü, İmam Əlinin (ə) yaşadığı mühiti, bu sözlərin deyildiyi fəzanı tanımalıyıq.[2]

* * *

---

Xoşbəxtlikdən alim və tədqiqatçılar çox sayda dəyərli işlər görmüşlər ki, aşağıda bir neçə nümunəni diqqətinizə çatıdırırıq:

1) "Əd-Dəlil", Əli Ənsarianın əsəri;
2) "Əl-Hadi", Ayətullah Mişkininin əsəri;
3) "Təsnifi-Nəhc əl-bəlağə", Ləbib Feyzunun əsəri;
4) "Əl-Kaşif", Doktor Müstəfəvinin əsəri;
5) "Əl-Möcəm əl-müfəhrəs li əlfazi-Nəhc əl-bəlağə", Məhəmməd Dəşti və Məhəmmədinin əsəri;
6) "Fərhəngi-aftab" ("Nəhc əl-bəlağə" məfhumlarının geniş izahlı lüğəti, on cilddən ibarətdir), Əbd əl-Məcid Məadixah

[1] "Nəhc əl-bəlağədən dərslər", səh. 17
[2] "Nəhc əl-bəlağə-dən dərslər", səh. 25

**3. Sənəd etibarı baxımından fəsillərə bölünməsi**

"Nəhc əl-bəlağə" ilə bağlı görülməsi yaxşı olan digər işlərdən biri də onun sənəd etibarı baxımından fəsillərə bölünməsidir.

Şübhəsiz, "Nəhc əl-bəlağə"nin bəzi hissələri rəvayət olaraq çox yüksək etibara malikdir. Bəzi hissələri də vardır ki, bu həddə deyil. "Nəhc əl-bəlağə"nin sənədləri ilə bağlı bugünədək bir sıra işlər görülmüşdür. Bu haqda iki və ya üç kitab da çap edilmişdir. Bəlkə keçmişdə də bu işlər görülmüşdür, amma çoxları ondan xəbərsizdir. Sənəd etibarı baxımından təsnifat zəruridir. Belə ki, insan bu və ya digər xütbəni, məktubu, yaxud kəlamı oxuduqda onun bir hədis kimi sənəd baxımından nə qədər etibarlı olduğunu, ona nə qədər etimad etmək olduğunu bilsin. Bütün dəlilləri, vasitələri bu işə yönəltmək olar. Bu, əgər ümumi xalq üçün zəruri olmasa da tədqiqatçılar, alimlər və bu məsələyə əhəmiyyət verənlər üçün zəruri və önəmlidir.[1]

* * *

Əgər biz "Nəhc əl-bəlağə" haqqında tədqiqat aparsaq, əgər İmam Əlinin (ə) "Nəhc əl-bəlağə"də olmayan xütbələri toplansa, bunların üzərində sənəd və onlara etibar qazandıran digər xüsusiyyətlər baxımından ixtisaslaşmış iş aparılsa, "Nəhc əl-bəlağə"ni o həzrətdən (ə) nəql olunan beş yüz xütbəyə çatdıra bilsək on beşinci hicri ilində İslam maarifinə böyük xidmət etmiş olacağıq. Beləcə İslamın erkən çağlarından bu qədər zamanın keçməsinə baxmayaraq, bütün İslama inananlar üçün məqbul ola biləcək zəngin və sarsılmaz qaynağı müsəlmanların ixtiyarına verə bilərik.[2]

* * *

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

[2] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

## 4. "Nəhc əl-bəlağə"nin fars dilinə yaxşı tərcüməsi

Əlbəttə, mənim bu sahədə görülən işlərdən az-çox xəbərim var. "Nəhc əl-bəlağə"ni fars dilinə çevirmək istiqamətində çəkilən olmazın zəhmətlərə -Allah etməmiş,- kiçik gözlə baxmaq istəmirəm.

Mən üç il öncə də təşkil olunan digər konqresdə iştirak etmək şərəfinə nail olduqda "Nəhc əl-bəlağə"ni ilk dəfə fars dilinə çevirən, xalqın ixtiyarına verən, "Nəhc əl-bəlağə"nin səsini ilk dəfə camaatın qulağına yetirən görkəmli alim Feyz əl-İslama təşəkkürümü bildirdim və indi də təşəkkür edirəm. Həmçinin "Nəhc əl-bəlağə"ni azad və ya seçilmiş hissələrini, yaxud da məzmunca tərcümə edən digər müəlliflərə də öz növbəmdə təşəkkür edirəm. Lakin qeyd etmək istəyirəm ki, cəmiyyətmizdə "Nəhc əl-bəlağə"nin tam və əhatəli tərcüməsinin, eləcə də Quranın tam, aydın tərcüməsinin yeri boşdur. Mən, artıq neçənci dəfədir ki, Quranı yaxşı tərcümə edə biləcək mütəxəssislərdən xahiş edirəm ki, bu işi görsünlər. İslam Respublikası beş ildən sonra zənnimcə gecikmişdir. Bu iş daha tez həyata keçirilməli idi. Hər keçən gün daha gec olur. Zənnimcə, bir neçə nəfərin bu iki müqəddəs əsərin tərcüməsinə başlamasının, bacardıqları qədər irəliləmələrinin eybi yoxdur. Çünki hər halda heç bir tərcümə kamil olmayacaq. Yəni filan güclü ərəb dili mütəxəssisinin, filan mahir tərcüməçinin "Nəhc əl-bəlağə"ni təcümə etməyə başladığını eşitdikdə əllərini işdən çəkməsinlər, işlərini davam etdirsinlər. Kim özündə maraq, şövq hiss edirsə, işə başlasın. Əgər Quran və "Nəhc əl-bəlağə"nin on yaxşı tərcüməsi olsa yenə çox deyil. Bir ayə və ya cümlə ilə bağlı müxtəlif baxışların, fərqli zövqlərin oxucunu o cümlənin gerçək tərəflərinə daha yaxın edə bilməsinin heç bir eybi yoxdur. Buna görə də mən bu işi bu gün birinci dərəcəli iş hesab edirəm.[1]

---

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

*   *   *

## 5. "Nəhc əl-bəlağə"nin sözlərinin tərcüməsi

"Nəhc əl-bəlağə" sahəsində görülməsi zəruri olan başlıca işlərdən biri onun lüğətlərinin farsdillilər üçün, hətta ərəbdillilər üçün də təcümə olunmasıdır. Bəzi "Nəhc əl-bəlağə"lərin haşiyələrində mərhum Məhəmməd Əbduh və bu kimi digər dühalar bu işi görsələr də kifayət deyil. Bu kitabda yer alan çoxsaylı söz və ifadələr ədəbi yük, incəsənət fiqurları, fəsahət və bəlağət baxımından geniş yer tutur və - səthi tərcümədən daha çox - ayrıca iş tələb edir. Qısası, "Nəhc əl-bəlağə" üçün tam, dərin lüğət hazırlanmalı, tərtib edilməlidir.[1]

*   *   *

## 6. Xütbənin ayrılmış hissələrini yerinə qaytarmaq

Uzun zaman zəruri olduğunu düşündüyüm işlərdən biri də bir xütbənin ayrılmış hissələrini birləşdirmək olmuşdur. Onları bəzi yerdə Seyid Rəzi bir-birindən ayırmışdır. Yəqin ki, diqqət yetirmisiniz, bəzi yerlərdə bir xütbə başlandıqdan sonra deyilir: "Və minha" (Yəni bu da həmin xütbənin bir hissəsidir). Şübhəsiz, onların arasında nə isə ixtisara salınmışdır. Əks təqdirdə "və minha" ibarəsinə ehtiyac yox idi. Bəzi yerlərdə bəlli olur ki, bu xütbənin sonu deyil və mövzu natamamdır. Güman ki, bəzi hissələri "Nəhc əl-bəlağə"nin özündə də tapmaq olar. Bir çoxlarını da digər hədis kitablarında axtarıb tapmaq olar.

---

Qeyd etmək lazımdır ki, xoşbəxtlikdən Rəhbərin çıxışından keçən bir neçə ildə Quran və "Nəhc əl-bəlağə"nin tərcüməsi sahəsində yaxşı, təqdirəlayiq işlər görülmüşdür.

1. Ayətullah Məkarim Şirazi, Əbd əl-Məhəmməd Ayəti, Məhəmməd Xacəvi, Cəlalədddin Farsi, Bəhaəddin Xürrəmşahi və başqalarının Quran tərcüməsi
2. Doktor Cəfər Şəhidi, Əbd əl-Məcid Məadixah, Əli Əsğər Fəqihi, Doktor Əzizullah Cuveyninin Nəhc əl-bəlağə tərcümələri

[1] Böyük Rəhbərin dördüncü "Nəhc əl-bəlağə" konqresində çıxışı (1363)

Hər halda bəzən insan bir xütbənin olduqca mühüm, amma aralarına fasilə düşmüş iki hissəsini görür. Himmət sahibləri bu yer dəyişikliklərini axtarıb tapmalı, bir xütbənin parçalanmış, ayrı salınmış hissələrini mümkün qədər birləşdirməlidirlər.[1]

* * *

Təəssüflər olsun ki, "Nəhc əl-bəlağə"nin bir çox xütbələri natamamdır. Yəni ya xütbənin əvvəlindən, ya sonundan bir hissə ixtisara salınmışdır. Hətta bəzən Seyid Rəzi "Nəhc əl-bəlağə"də bir xütbənin ortasını ixtisara salmışdır. Xütbəni nəql edir, sonra bir yerə çatır və (xütbəni) kəsir. Sonra aşağısında yazır: "Və minha", yəni həmin xütbədəndir. Sonra isə digər bir hissəsini nəql edir. Eynilə bu gün bir çox jurnalistlərin, qəzetçilərin etdiyi kimi. Misal üçün, qəzetçilər yazırlar: "O, sözlərini digər bir hissəsində dedi". Bu keçidə "və minha" deyilir. İmam Əlinin (ə) sözlərinin iki hissəsi arasında olmuş ifadələr nə idi? Biz bunu bilmirik və bu, bizim işimizdə problem törədir. Nə üçün Seyid Rəzi bu işi görmüşdür. Çünki "Nəhc əl-bəlağə" adından da göründüyü kimi bəlağət və fəsahətin yolu, üslubudur və sırf incəsənət nöqteyi-nəzərindən toplanmışdır.[2]

* * *

"Nəhc əl-bəlağə" sahəsində görülməsi zəruri olan praktiki işləri siyahıya alın. Qoy, bilinsin ki, hansı işlərin görülməsi yaxşıdır. Şübhəsiz, bu iş yeni eşqlər, yeni imanlar, yeni istedadlar, yeni təşəbbüslər, yeni ixtisaslar meydana gətirəcəkdir.[3]

* * *

---

[1] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)
[2] "Nəhc əl-bəlağədən dərslər", səh. 13
[3] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)

# Son söz

Sonda ilk olaraq "Nəhc əl-bəlağə"nin gündəmə gətirilməsi yönündə xidmət göstərən, "Nəhc əl-bəlağə" tədqiqatlarına ciddi elmi cəhətlər bəxş edən, onun müzakirəyə qoyulmasına, davamlılığına əhəmiyyət verən, bu müqəddəs kitabı, həyat dərsini unutqanlıq tozu altından çıxaran əziz qardaşlara təşəkkürümü bildirirəm. İkincisi, "Nəhc əl-bəlağə" sahəsində çalışan tədqiqatçılara, şərh və təfsir yazanlara, tərcümə edənlərə, lüğət tərtib edənlərə, digər dəyərli fəaliyyətlər göstərənlərə təşəkkür edirəm. Eyni halda bir daha xahiş edirəm ki, "Nəhc əl-bəlağə" məsələsi ilə bundan da ciddi məşğul olun.[1]

* * *

Bir daha bütün məsul şəxslərə "Nəhc əl-bəlağə"yə verdikləri əhəmiyyətə, bu konqresi təşkil etdiklərinə görə təşəkkür edirəm. Ümidvaram ki, bu yüksək cidd-cəhdləri İslam ümmətinə böyük xidmətin mənşəyi ola bilsin, "Nəhc əl-bəlağə" daha da çox istifadə olunsun və bu iş bəlkə də bir çoxlarının hələ "Nəhc əl-bəlağə" ilə tanış olmadığı bütün müsəlmanlar üçün örnək olsun.[2]

---

[1] Böyük Rəhbərin beşinci “Nəhc əl-bəlağə” konqresində çıxışı (1364)
[2] Böyük Rəhbərin dördüncü “Nəhc əl-bəlağə” konqresində çıxışı (1363)

Mündəricat


***Giriş* ..................................................................................3**

***Birinci fəsil*..........................................................................4**

**"Nəhc əl-bəlağə" ilə tanışlıq ..................................................... 4**

***İkinci fəsil*...........................................................................12**

**"Nəhc əl-bəlağə"nin tarixçəsi ................................................. 12**

***Üçüncü fəsil*..........................................................................15**

**"Nəhc əl-bəlağə"də həzrət Əlinin (ə) şəxsiyyəti ..................... 15**

***Dördüncü fəsil*.......................................................................18**

**"Nəhc əl-bəlağə"nin tərcüməçisi Feyz əl-İslam ..................... 18**

***Beşinci fəsil*...........................................................................20**

**Quran və "Nəhc əl-bəlağə" ...................................................... 20**

***Altıncı fəsil*...........................................................................23**

**"Nəhc əl-bəlağə"nin İslam cəmiyyətində rolu ....................... 23**

***Yeddinci fəsil* .........................................................................30**

**"Nəhc əl-bəlağə"nin İslam dünyasında rolu .......................... 30**

***Səggizinci fəsil*.......................................................................33**

**Təhsil nazirliyinin "Nəhc əl-bəlağə"nin canlandırılmasında rolu ....................................................................................... 33**

***Doqquzuncu fəsil*..................................................................35**

**Dərdlərin dərmanı "Nəhc əl-bəlağə"dədir ............................. 35**

***Onuncu fəsil* ..........................................................................39**

***"Nəhc əl-bəlağə"də hökumət* ..............................................39**

***On birinci fəsil*.......................................................................47**

**"Nəhc əl-bəlağə"də vəhdət........................................................ 47**

***On ikinci fəsil ............................................................................49***

**"Nəhc əl-bəlağə"də təqva........................................................... 49**

***On üçüncü fəsil .........................................................................51***

**"Nəhc əl-bəlağə"də tarix............................................................. 51**

***On dördüncü fəsil.......................................................................52***

**"Nəhc əl-bəlağə" ilə bağlı görülməli işlər................................ 52**

***Son söz .......................................................................................59***